AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

30 DEKABR 2018-ci il BAZAR № 294 (6327) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyrin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Həməd bin Abdullah bin Səud bin Xudeyr etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı əməkdaşlığın yüksək səviyyədə olduğunu, güclü siyasi əlaqələrin qurulduğunu bildirərək ölkələrimizin bir-birini beynəlxalq təşkilatlarda dəstəkləməsinin bunun parlaq təzahürü olduğunu dedi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı və ədalətli mövqeyini ardıcıl surətdə dəstəkləməsinin yüksək qiymətləndirildiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi, ticarət, investisiya sahələrində əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı maraq göstərdiklərini və bu istiqamətdə birgə fəaliyyət həyata keçirdiklərini bildirdi. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanından ölkəmizə gələn



turistlərin sayının sürətlə artmasını əlaqələrimizin gözəl nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı əməkdaşlığımızın geniş gündəliyə malik olduğunu qeyd edərək Həməd bin Abdullah bin Səud bin Xudeyrin səfir kimi fəaliyyəti dövründə qardaşlıq münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr xoş sözlərə görə minnətdarlığını bildirərək İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O vurğuladı ki, Kral Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir.

Səfir Həməd bin Abdullah bin Səud bin Xudeyr Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdi, iqtisadi-ticari, investisiya, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. O, ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkür etdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Sudan Respublikasının Prezidenti Zati-aliləri cənab Ömər Həsən Əhməd əl-Bəşirə

Hörmətli cənab Prezident,

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Sudan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

Hörmətli cənab Sədr,

Kuba Respublikasının milli bayramı - Azadlıq Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 413; 1999, N 5, maddə 284, N 7, maddə 396, N 10, maddə 570; 2001, N 5, maddə 292, N 6, maddə 379, N 7, maddə 455; 2002, N 1, maddə 4, N 12, maddə 706; 2003, N 6, maddə 278; 2004, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 199, N 8, maddələr 597, 598, N 9, maddə 669; 2005, N 1, maddə 7, N 8, maddə 686; 2006, N 1, maddə 4, N 12, maddə 1005; 2007, N 5, maddələr 439, 446, N 7, maddə 712, N 11, maddə 1078, N 12, maddə 1222; 2008, N 3, maddə 163, N 7, maddə 609; 2009, N 2, maddə 46, N 11, maddə 878; 2010, N 7, maddə 596, N 10, maddə 842; 2011, N 4, maddə 265; 2013, N 1, maddə 21; 2014, N 2, maddə 85, N 7, maddələr 782, 784; 2015, N 2, maddə 98, N 4, maddə 346, N 5, maddə 483, N 11, maddə 1286; 2016, N 6, maddə 1004, N 11, maddə 1789, N 12, maddə 2033; 2017, N 6, maddə 1034, N 7, maddə 1305, N 11, maddə 1965; 2018, N 1, maddə 12, N 3, maddə 395, N 5, maddə 888, N 7, maddə 1442) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Məhkəmələrin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq anonimləşdirilməklə elektron qaydada yayılmalıdır.".

**2.** 86-cı maddənin üçüncü hissəsinə "aparılması" sözündən sonra ", o cümlədən işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi və elektron qaydada yayılan məhkəmə qərarlarının anonimləşdirilməsi" sözləri əlavə edilsin.

**3.** 87-ci maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Məhkəmə statistikası, həmçinin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada aparılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

# Prezident İlham Əliyev Braziliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruzun etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanın Braziliya ilə əlaqələrə böyük önəm verdiyini qeyd edərək ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Siyasi sahədə əlaqələrin qarşılıqlı anlaşmaya əsaslanaraq tarazlı şəkildə inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ticari-iqtisadi əlaqələrin və kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı fəaliyyətin artırılmasının zəruriliyini qeyd etdi. İki ölkə arasında aviasiya sahəsində əməkdaşlığa toxunan dövlətimizin başçısı, həmçinin mədəniyyət və turizm sahələrində də əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu bildirdi.



Prezident İlham Əliyev Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza səfir kimi Azərbaycanda fəaliyyəti dövründə uğurlar arzuladı.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz Braziliyanın dövlət başçısının salamlarını Prezident İlham Əliyevə çatdırdı və Azərbaycanda fəaliyyətə başlamasından böyük məmnunluq hissi keçirdiyini qeyd etdi.

Səfir ölkələrimiz arasında siyasi məsləhətləşmələrin aparıldığını qeyd edərək iqtisadi, ticarət və digər sahələrdə iki ölkənin mövcud potensialından istifadə edilməsi üçün səylərin artırılmasının zəruriliyini bildirdi. O, ümidvar olduğunu dedi ki, iqtisadi məsələlər üzrə ikitərəfli işçi qrupunun keçirilməsi nəzərdə tutulan növbəti iclası bu istiqamətdə əməkdaşlığın inkişafına töhfə verəcək.

Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz ölkələrimiz arasında dostluğun və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylə çalışacağını bildirdi.

Prezident İlham Əliyev Braziliya dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının çatdırılmasını xahiş etdi.

**AZƏRTAC**

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1437-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1437-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1448-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1448-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 231; 2000, N 3 (I kitab), maddə 159; 2008, N 7, maddə 611, N 8, maddə 719, N 10, maddə 896; 2009, N 2, maddə 71, N 12, maddələr 977, 987; 2011, N 7, maddə 633; 2012, N 6, maddə 545; 2014, N 7, maddə 791, N 11, maddə 1408, N 12, maddə 1570; 2015, N 1, maddə 20; 2016, N 6, maddə 1050; 2018, N 10, maddə 2007) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

*2.1.* ikinci abzasa "Məcəlləsinin" sözündən sonra "3-cü maddəsinin 5-1-ci hissəsində," sözləri əlavə edilsin və həmin abzasda "3-cü hissəsinin birinci cümləsində" sözləri "2-2-ci (hər iki halda) və 4-cü hissələrində, 3-cü hissəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

*2.2.* iyirmi ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda iyirmi üçüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin 3-cü maddəsinin 5-1-ci hissəsində, 49-cu maddəsinin 2-2-ci (hər iki halda) və 4-cü hissələrində "orqan" dedikdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi nəzərdə tutulur.".

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048; N 12 (I kitab), maddələr 2187, 2189; 2018, N 1, maddə 13, N 6, maddə 1155, N 7 (I kitab), maddələr 1380, 1408) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin 5-1-ci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş işçilərlə ilk dəfə əmək müqaviləsinin bağlanması elektron informasiya sistemində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən elektron qaydada təqdim olunan məlumatlar əsasında qeydiyyata alınır.".

2. 7-ci maddəyə aşağıdakı məzmunda 2-2-ci hissə əlavə edilsin:

"2-2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş şəxslərlə əmək münasibətləri həmin Qanunla müəyyən olunmuş qaydada dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə cəmiyyətin elektron kabinetinə göndərildiyi andan yaranır.".

3. 12-ci maddənin 1-ci hissəsinin "h" bəndində "hissəsi" sözü "və 2-2-ci hissələri" sözləri ilə əvəz edilsin.

4. 49-cu maddə üzrə:

4.1. 1-ci hissəyə "hissəsi" sözündən sonra "və bu maddənin 1-2-ci hissəsi" sözləri əlavə edilsin.

4.2. aşağıdakı məzmunda 1-2-ci və 2-2-ci hissələr əlavə edilsin:

"1-2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatına alınması üçün ərizədə qeyd olunmuş şəxslərlə ilk dəfə bağlanmış əmək müqaviləsi həmin Qanunla müəyyən olunmuş qaydada dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə cəmiyyətin elektron kabinetinə göndərildiyi andan hüquqi qüvvəyə minir.";

"2-2. Bu maddənin 1-2-ci hissəsi ilə müəyyən olunmuş hallarda elektron informasiya sisteminə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə 1 iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) elektron qaydada məlumat göndərilir.".

4.3. 4-cü hissədən "gücləndirilmiş elektron imza vasitəsi ilə" sözləri çıxarılsın və "işəgötürənə" sözündən sonra "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin vəzifədən azad edilmələri haqqında

## Azərbaycan Respublikası Milli Məclisin Qərarı

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsini nəzərə alaraq və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilsinlər:

Polad Vəli oğlu Həsənov,

Qabil Neymət oğlu Məmmədov.

**2.** Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri**
**O.Əsədov**

**Bakı şəhəri, 28 dekabr 2018-ci il.**

# Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində səfərdədir

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Müdafiə Nazirliyinin rəhbər heyəti cəbhənin Füzuli istiqamətində yerləşən hərbi hissələrdə olub və şəxsi heyətlə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəhbər heyəti Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib.

Cocuq Mərcanlı kənd məktəbində müəllim və şagirdlərlə görüşən müdafiə naziri, general-polkovnik Zakir Həsənov onları qarşıdan gələn bayramlar münasibətilə təbrik edərək, məktəblilərə bayram hədiyyələri təqdim edib.

Ön xətdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən nazir müdafiənin dayanıqlılığını, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığını yoxlayıb, komanda-müşahidə məntəqəsindən düşmən mövqelərini izləyib.

Çay süfrəsi arxasında əsgərlərlə söhbət etdikdən sonra müdafiə naziri ön xətdə xidmət edən şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı görülən işlərlə maraqlanıb və müvafiq tapşırıqlar verib.

Bayram münasibətilə şəxsi heyətə təbriklərini və ən xoş arzularını çatdıran general-polkovnik Z.Həsənov xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandıraraq onlara qiymətli hədiyyələr təqdim edib.

Sonra nazir cəbhə bölgəsində yerləşən hərbi hospitalda müalicə alan hərbi qulluqçularla görüşərək onların səhhəti ilə maraqlanıb. Nazir hərbi qulluqçulara bayram sovqatları təqdim edib, onların tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.

**AZƏRTAC**

# Müdafiə naziri "Açıq qapı" günündə olub

**Dekabrın 29-da Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə hərbi hissələrdə əsgər valideynləri və yaxınlarının, Milli Məclisin deputatlarının, yerli rayon rəhbərliklərinin, ictimaiyyət nümayəndələri və mədəniyyət işçilərinin iştirakı ilə "Açıq qapı" günü keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbər heyəti döyüş zonasında yerləşən hərbi hissələrdən birində keçirilən "Açıq qapı" günündə olub.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə keçirilən görüşdə valideynləri maraqlandıran məsələlər müzakirə olunub və onların sualları cavablandırılıb. Əsgər valideynlərini dinlədikdən sonra nazir bir sıra məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

Nazir və digər rəhbər şəxslər əsgər yaxınları, valideynləri ilə birlikdə bayram şənliyində iştirak ediblər.

"Açıq qapı" günündə hərbi hissəyə gələn vətəndaşlar hərbi hissələrdə yaradılan şəraitlə yaxından tanış olub, xidməti və inzibati binalara, əsgər yataqxanaları və yeməkxanaya baş çəkiblər.

Şəxsi heyət üçün təşkil olunan bayram konsertindən sonra müdafiə naziri hərbi qulluqçular və ziyarətçilərlə birlikdə bayram süfrəsi arxasında nahar ediblər.

**AZƏRTAC**

# Daxili işlər naziri polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib

**Dekabrın 29-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında Daxili İşlər Nazirliyinin (DİN) baş idarə, idarə və ərazi polis orqanlarında vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**



DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aidiyyəti baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə general-polkovnik Ramil Usubov ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumilikdə 630 iddiaçının arasından daha hazırlıqlı olan 445 nəfərin daxili işlər orqanlarında xidmətə qəbul olunması üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlərlə görüşdə çıxış edən nazir əvvəlcə onları qarşıdan gələn əlamətdar bayramlar - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. Ramil Usubov ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mükəmməl təhsilə, yüksək mənəvi və işgüzar keyfiyyətlərə, hərtərəfli dünyagörüşə malik gənclərin hər zaman dövlət idarəçiliyində daha geniş təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tövsiyə və tapşırıqlarını xatırladıb. Nazir bu istiqamətdə hər zaman konkret addımların atıldığını, hazırkı seçimlərin bu sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü siyasətin növbəti bariz nümunəsi olduğunu bildirib.

Ramil Usubov cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin, əmin-amanlığın təmini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması siyasətinin hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının da üzərinə böyük məsuliyyət qoyduğunu, hər bir əməkdaşın öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməsinin əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək şərəfli polis adını uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, idmanla sıx məşğul olmalarını, müasir dövrün tələblərinə və çağırışlarına cavab vermələrini, informasiya texnologiyalarının ən son nailiyyətlərini praktikada fəal şəkildə tətbiq etmələrini tövsiyə edib.

**AZƏRTAC**

# Sərhədyanı yaşayış məntəqələrinin sakinləri ilə görüş

**Dövlət Sərhəd Xidməti ictimaiyyət nümayəndələrinin və gənclərin Vətənə məhəbbət, onun sərhədlərinə hörmət ruhunda tərbiyə olunması, sərhədçi peşəsinə marağın daha da artırılması məqsədi ilə müxtəlif məqsədyönlü tədbirlər həyata keçirir.**



Keçirilən tədbirlər sırasında sərhədyanı rayonların sakinləri və məktəblilərlə "Sərhədi xalq qoruyur" mövzusunda təşkil olunan çoxsaylı görüşlər xüsusi yer tutur. Bu görüşlərdə sərhəd mühafizəsinin yaranması və inkişafı haqqında geniş məlumatlar verilir, yerli əhalinin dövlət sərhədinin mühafizəsindəki rolu, sərhədçilərlə sakinlərin qarşılıqlı əlaqələrinin əhəmiyyəti mövzusunda söhbətlər aparılır, gənclərimizə sərhədlərimizin mühafizəsi işinin təşkili, sərhədçi peşəsinin xüsusiyyətləri ətraflı izah edilir.

"Sərhədi xalq qoruyur" mövzusunda daha bir tədbir dekabr ayının 28-də Dövlət Sərhəd Xidməti tərəfindən mühafizə altına götürülmüş Azərbaycan-Ermənistan dövlət sərhədlərinin Qazax rayonunun Kəmərli, Qaymaqlı, Aslanbəyli, Quşçu-Ayrım, Məzəm, Cəfərli və Xanlıqlar yaşayış məntəqələrinin orta məktəblərində keçirilmişdir.

Dövlət himninin səslənməsi ilə başlanan tədbirlərdə çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasından və qazanılmış uğurlardan danışmışlar.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qərarına əsasən Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin DSX-nin Sərhəd Qoşunlarına həvalə olunmasının şərəf və qürur olmaqla yanaşı, eyni zamanda Ali Baş Komandanın Azərbaycan sərhədçisinə olan etimad və etibarının ifadəsi kimi dəyərləndirmişlər.

Ölkəmizin sərhədlərinin mühafizəsində ictimaiyyətin də yaxından iştirak etməsi razılıq hissi ilə qeyd edilmiş, bunun da xalq və dövlətin vəhdətindən irəli gəldiyi xüsusi vurğulanmışdır.

Qazax rayon ictimaiyyətinin nümayəndələri sərhədçiləri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə təbrik etmiş, yerli əhalinin dövlət sərhədinin mühafizəsində sərhədçilərə yaxından köməklik göstərməsinin böyük əhəmiyyət daşıdığını və yüksək qiymətə layiq olduğunu bildirmişlər.

Tədbirlərin sonunda Dövlət Sərhəd Xidməti adından Qazax rayonunun sərhədyanı yaşayış məntəqələrində yerləşən məktəblərə müasir kompüter, noutbuk və videoproyektor dəstləri hədiyyə olunmuşdur.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Yasamal rayonunda Həmrəylik Günü və Yeni il şənliyi təntənə ilə qeyd edildi





**Milli həmrəylik tarixi Vətənin maraqlarından doğan zərurətdir. Azərbaycan Respublikası Dünya Azərbaycanlılarının Birliyini milli mənafelər və dövləti maraqlar kontekstində ortaya çıxan təbii tarixi zərurət kimi qiymətləndirir.**

Bakının Yasamal Rayon İcra Hakimiyyəti "Karvan" şadlıq sarayında 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təntənəli mərasim keçirdi. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, qonaqlar, şəhid ailələri iştirak edirdilər.

Bayram tədbirində çıxış edən rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov vurğuladı ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən və xüsusilə ulu öndər, dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra diasporun formalaşmasına, onun azərbaycançılıq ideyası ətrafında sıx birləşməsinə dair tədbirlər kompleksinin işlənib hazırlanması və reallaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Heydər Əliyev hələ 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri olarkən, bu istiqamətdə ilk addım atdı. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün hər il bayram edilməsi haqqında qərar qəbul edilməsi təşəbbüsünü irəli sürdü. Azərbaycan xalqının birliyi ideyasının bəyan edildiyi bu sənəd Azərbaycan diasporunun birləşməsinin təməlini qoydu, bunun üçün güclü təkan oldu.

Milli dövlətçilik tariximizdə ilk dəfə olaraq məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Bu qurultayda xalqımızın mənəvi birliyi, azərbaycançılıq ideyaları öz parlaq təcəssümünü tapdı. Ulu öndər qurultayda demişdir: **"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".**

Əziz Əzizov sözünə davam edərək qürur hissi ilə bildirdi ki, müdrik insan Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, onun inkişaf strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyev diasporumuzun formalaşması sahəsində nailiyyətləri yeni inkişaf mərhələsinə qaldıraraq daim diqqət mərkəzində saxlayır.

Yasamal rayonunun sakinləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Gümünü və Yeni il bayramını fərəh hissi ilə qarşılayırlar. Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışında iştirak etmişlər.

Əziz Əzizov təntənəli bayram tədbirində son olaraq rayon sakinlərini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə təbrik etmiş, onlarla xatirə şəkilləri çəkdirmiş və əminliklə bildirmişdir ki, 2019-cu ildə bütün sahələrdə uğurlu nəticələrə imza atılacaq, ölkə başçısının qarşıya qoyduğu vəzifələr uğurla icra olunacaqdır.

Həmrəylik Günü ilə bağlı keçirilən geniş mərasimdə Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, Əməkdar elm xadimi Nəsib Quliyev, Milli Konservatoriyanın rektoru, professor Səyavuş Kərimli, YAP Yasamal təşkilatının sədri Tağı Əhmədov çıxış etdilər.

Bayram tədbirində incəsənət ustalarının maraqlı proqramla çıxışı hamıda xoş ovqat yaratdı.

**Qədir ASLAN,**
**"Respublika".**

# ARDNF-nin yaradılmasının 19 ili tamam olur

**19 il əvvəl, 1999-cu il dekabrın 29-da xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli neft strategiyasının uğurlu nəticəsi olaraq neft və qaz gəlirlərinin səmərəli idarə edilməsi, bu enerji resurslarından əldə edilən vəsaitlərin prioritet sahələrin inkişafına, sosial-iqtisadi və strateji baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) yaradıldı.**

Fəaliyyətə başladığı vaxtdan 19 il ərzində ARDNF qarşısına qoyulan məqsədlərə nail olmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirmiş, öhdəliklərini layiqincə yerinə yetirmişdir.

Əgər 2001-ci ildə ARDNF-nin vəsaitləri 270 mln. ABŞ dolları təşkil edirdisə, 2018-ci il üzrə bu rəqəm artıq 38 mlrd. dolları keçmişdir.

Bu gün ARDNF tərəfindən bu vəsaitlərin səmərəli idarə edilməsi prinsipi əsasında ölkəmizin sosial-iqtisadi tərəqqisi naminə mühüm ümummilli layihələrin maliyyələşdirilməsi həyata keçirilir.

Ümummilli lider Heydər Əliyevin müdrik qərarına əsasən, qaçqın və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlərin maliyyələşdirilməsi ARDNF-nin vəsaiti hesabına həyata keçirilir. Ölkəmiz üçün çox mühüm iqtisadi, siyasi, strateji əhəmiyyət kəsb edən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin, Oğuz-Qəbələ-Bakı su kəmərinin, "Star" neft emalı kompleksinin, o cümlədən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən və iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından mühüm olan "Bakı-Tbilisi-Qars yeni dəmir yolu xətti"nin tikintisi layihələri də ARDNF tərəfindən maliyyələşdirilmişdir. Bunlarla yanaşı, hazırda Samur-Abşeron suvarma sisteminin yenidən qurulması tikintisi layihəsinin maliyyələşdirilməsi Fond tərəfindən həyata keçirilir.

ARDNF tərəfindən maliyyələşdirilən mühüm layihələrdən biri də Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"dır. Bu layihənin əsas məğzi "qara qızılın insan kapitalına çevrilməsi" ideyasının reallaşdırılmasıdır.

Yaradıldığı gündən etibarən şəffaflıq ARDNF-nin fəaliyyətinin əsas prinsiplərindən birini təşkil edir və bu şəffaf fəaliyyətinin nəticəsi olaraq Şərqi Avropa və MDB ölkələrinin dövlət təşkilatları arasında ilk dəfə məhz Neft Fondu 2007-ci ilin mayında "BMT-nin Dövlət Qulluğu Mükafatı" ilə təltif edilmişdir. Bununla yanaşı, ARDNF 2018-ci ilin oktyabr ayında Suveren Fondlar İnstitutu (SWFİ) tərəfindən tərtib olunmuş dünyanın ən nüfuzlu 100 investoru siyahısına daxil edilmiş və dövlət vəsaitlərinin idarə edilməsi üzrə müxtəlif göstəricilər nəzərə alınmaqla 10-cu yerdə qərarlaşmışdır.

Həyata keçirilən bütün bu tədbirlər sayəsində bu gün ARDNF nəinki Azərbaycan, eyni zamanda beynəlxalq aləmdə institusional quruculuq, vəsaitlərin səmərəli idarə edilməsi, əməliyyatların şəffaflığı və informasiyanın açıqlığına görə fərqlənən və bu sahədə yüksək nüfuza malik qurum kimi tanınır.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# Əldə edilən müsbət nəticələr turizmin inkişafından xəbər verir

Cari ilin 11 ayında ölkəmizə gələn turistlərin sayında artım müşahidə olunur. Belə ki, 2018-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycana dünyanın 195 ölkəsindən 2633,5 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə, gələnlərin 31,1 faizi Rusiya Federasiyası, 20,9 faizi Gürcüstan, 10,1 faizi Türkiyə, 8,6 faizi İran, 3,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,7 faizi Səudiyyə Ərəbistanı, 2,4 faizi İraq, 2,0 faizi Ukrayna, 1,5 faizi İsrail, 17,5 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 65,7 faizini kişilər, 34,3 faizini isə qadınlar təşkil etmişdir. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 7,1 faizi yanvar, 6,4 faizi fevral, 10,5 faizi mart, 8,3 faizi aprel, 7,9 faizi may, 10,2 faizi iyun, 12,5 faizi iyul, 12,2 faizi avqust, 8,8 faizi sentyabr, 8,0 faizi oktyabr, 8,1 faizi isə noyabr ayında ölkəyə gəlmişdir.

Cari ilin yanvar-noyabr aylarında Körfəz ölkələrindən (Birləşmiş Ərəb Əmirlikləri və İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Ötən ilin yanvar-noyabr ayları ilə müqayisədə ölkəmizə gələn Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,2 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,1 dəfə, Küveyt vətəndaşlarının sayı 1,9 dəfə, Qətər vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 10,4 faiz, Oman vətəndaşlarının sayı 8,5 faiz artmışdır. İrandan gələnlərin sayında 33,4 faiz, Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayında isə 6,5 faiz azalma müşahidə edilmişdir. Ümumilikdə Körfəz ölkələrindən 518,1 min nəfər gəlmiş və ölkəmizə gələnlərin, demək olar ki, hər beş nəfərindən biri bu ölkələrin vətəndaşları olmuşdur.

2018-ci ilin yanvar-noyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7,1 faiz artaraq 106,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,3 faiz artaraq 971,3 min nəfər olmuşdur.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 57,1 faizi dəmir yolu və avtomobil, 41,9 faizi hava, 1,0 faizi isə su nəqliyyatından istifadə etmişdir.

2018-ci ilin yanvar-noyabr aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 18,5 faiz artaraq 4464,5 min nəfər olmuşdur. Ölkə vətəndaşlarının 33,3 faizi İrana, 29,1 faizi Gürcüstana, 18,9 faizi Rusiya Federasiyasına, 12,6 faizi Türkiyəyə, 1,5 faizi Ukraynaya, 0,9 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 3,7 faizi isə digər ölkələrə səfər etmişdir. Səfər edənlərin 65,4 faizi kişilər, 34,6 faizi isə qadınlar olmuşdur.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 69,3 faiz, Gürcüstana gedənlərin sayı 3,3 faiz, Türkiyəyə gedənlərin sayı 0,4 faiz artmış, Rusiya Federasiyasına gedənlərin sayı 0,3 faiz azalmışdır.

Cari ilin yanvar-noyabr aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 81,2 faizi dəmir yolu və avtomobil, 18,0 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə etmişdir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

*31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür*

# Azərbaycançılıq ideologiyasının İlham Əliyev mərhələsi

**Əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu dünyada yaşayan azərbaycanlıların həmrəyliyi ideyasını müasir mərhələdə Azərbaycan dövləti uğurla gerçəkləşdirir. Ulu öndərin ideya və əməllərinin ən layiqli varisi Prezident İlham Əliyevin bu xətti davam etdirməsi alternativ qəbul etməyən zərurət olub, azərbaycançılıq ideologiyasını zənginləşdirən, məzmununu bütövləşdirən konseptual siyasətdir. Hər şeydən əvvəl ona görə ki, dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, kiçik istisnaları nəzərə almasaq, azərbaycanlılar eyni etnik mənşəyə, dinə mənsub olub ortaq mental xüsusiyyətlərin, adət-ənənələrin daşıyıcısıdırlar. Əlbəttə, qloballaşan müasir dünyada azərbaycanlıların siyasi-inzibati sərhədləri aşaraq bir-birlərilə sıx ünsiyyətə girmələri, ümummilli maraqlarını humanizm, insan hüquqları çərçivəsində təmin etmələri yalnız milli yox, həm də ümumbəşəri bir ehtiyacdır ki, əlahiddə hadisə olmayıb bütün millətə xasdır. ümummilli lider Heydər Əliyevin və dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının dünya miqyasında milli-mənəvi, mədəni bütövlüyünün möhkəmlənməsi üçün müstəqillik illərində məqsədyönlü, inadlı, ardıcıl mübarizə aparılmışdır ki, bunun müsbət nəticələrini görməmək mümkün deyil.**

Azərbaycançılıq ideologiyası XIX əsrin sonu, XX əsrin əvvəllərində formalaşdıqdan, yaxud təşəkkül tapdıqdan sonra bir əsrdən artıq mürəkkəb, ziddiyyətli, lakin mənsub olduğu xalqın iradəsini ifadə etdiyindən ardıcıl, davamlı bir təkamül yolu keçmişdir ki, onun - azərbaycançılıq ideologiyasının təkamülünün, fikrimizcə, aşağıdakı beş mərhələsi mövcuddur:

1) XX əsrin 20-ci illərinin əvvəllərindən 30-cu illərinin sonlarına qədər;

2) XX əsrin 30-cu illərinin sonlarından 70-ci illərinin əvvəllərinə qədər;

3) XX əsrin 70-ci illərinin əvvəllərindən 80-ci illərinin sonlarına qədər;

4) XX əsrin 80-ci illərinin sonlarından XXI əsrin 10-cu illərinin əvvəllərinə qədər;

5) XXI əsrin 10-cu illərindən sonra

Tarixi tale elə gətirmişdir ki, azərbaycanlıların və ya Azərbaycan türklərinin bu gün yalnız beşdən biri müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Təxmini hesablamalara görə, dünya azərbaycanlılarının beşdən dördü öz tarixi Vətənində min illərlə necə məskun olmuşdursa, bu gün də elə yaşayır.

Azərbaycan xalqının və insanının dünyanın inkişaf etmiş xalqları ilə müqayisədə ikinci, hətta üçüncü dərəcəli olması təsəvvürlərinin sürətlə aradan qaldırılması baxımından görülən işlər və onun uğurlu nəticələri də olduqca sevindiricidir. Nəzərə almalıyıq ki, azərbaycanlılarda on illər (hətta əsrlər) belə bir yanlışlıq olmuşdur. Ziyalıların bir qisminin ana dillərindən və prinsip etibarilə mənsub olduqları xalqdan imtina edib müxtəlif əcnəbi dillərdə danışıb-yazmaları, özlərinə əcnəbi soyad formaları qəbul etmələri və s. həmin "gerilik" kompleksinin təzahürləri idi ki, milli tarixin son mərhələsinə qədər bu və ya digər dərəcədə davam edirdi.

Bu gün ölkədəki iqtisadi, ictimai-siyasi və intellektual-mədəni şərait imkan verir ki, azərbaycançılıq ideologiyasının keçdiyi tarixi yol hərtərəfli, dərindən və geniş müzakirələr əsasında necə varsa, o cür araşdırılıb öyrənilsin, xüsusilə gənc nəslin Azərbaycan xalqını, Azərbaycan dövlətini müstəqilliyə gətirib çıxaran milli ideologiya, onun hansı müzakirələrdə, mübahisələrdə və münaqişələrdə formalaşdığı, eləcə də Əli bəy Hüseynzadə, Məhəmməd ağa Şahtaxtinski, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Səməd Vurğun, Mirzə İbrahimov kimi müxtəlif miqyaslı və mövqeli milli ideoloqların təfəkkür tərcümeyi-halları haqqında kifayət qədər aydın (və mükəmməl) təsəvvürləri olsun. Halbuki bu imkan əvvəlki mərhələlərdə ya yox idi, ya da müxtəlif səbəblər üzündən bu və ya digər dərəcədə məhdud olmuşdu.

Azərbaycan Prezidenti İlham Əliyevin 21 yanvar 2014-cü il tarixli sərəncamı ilə "türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının hazırlanmasında yaxından iştirak edən görkəmli ictimai xadim" Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi müasir Azərbaycan dövlətçiliyinin (və Prezident İlham Əliyevin), ilk növbədə, milli ideologiyanın tarixinə münasibətinin göstəricisidir. Və bu sözləri cənab Prezidentin bir sıra digər sərəncamları (xüsusilə, azərbaycançılıq ideologiyasının banilərindən biri olan, uzun illər adının çəkilməsi belə qadağan edilmiş Məhəmməd Əmin Rəsulzadənin yubileyinin keçirilməsi haqqındakı sərəncamı) barəsində də demək olar. Onların hər biri, *bir tərəfdən,* milli ideologiya klassiklərini geniş ictimai miqyasda tanıtmağa; *ikinci* tərəfdən milli ictimai şüuru zənginləşdirməyə, onun polifoniyasını təmin etməyə; üçüncü tərəfdən isə milli ideologiyanın köklərini, mənbələrini (və ümumən tarixini!) onun müasir təzahür texnologiyaları ilə üzvü vəhdətdə - bir bütöv halında təsəvvür eləməyə münbit (və rəsmi!) şərait yaradır.

Məlum olduğu kimi, istər təşəkkül dövründə, istərsə də müxtəlif təkamül mərhələlərində, xüsusilə XX əsrin 20-ci illərinin əvvəllərindən 70-ci illərinin əvvəllərinə, yəni Heydər Əliyev dövrünə qədər azərbaycançılıq ideologiyası həm ölkə daxilində, həm də ölkə xaricində (mühacirətdə) biri digərindən demək olar ki, təcrid olunmuş halda fəaliyyət göstərmişdir. Ölkə daxilində bu ideologiya get-gedə məhdudlaşdırılmış, hətta tamamilə unutdurulması üçün hər cür cəhdlər edilmiş, az-çox təzahürləri isə müxtəlif mənəvi-ideoloji istiqamətlərə (məsələn, liberal vətənpərvərlik) yönəldilməklə amorflaşdırılmış və ya "simasızlaşdırılmışdır..." Xaricdə (mühacirətdə) isə sosial bazası olmayan romantik xəyallara çevrilmişdir... Və bütün hallarda Azərbaycan xalqının milli ideallarının qarşısını həm adminstrativ (aqressiv!), həm diplomatik (aldatma!), həm də ekspressiv (şirnikləndirmə!) yolları ilə məhz sovet-sosialist ideologiyası kəsmiş, lakin milli idealları məhv etmək mümkün olmadığı kimi, milli ideologiyanı da sona qədər unutdurmaq, yaddaşlardan silmək mümkün olmamışdır.

Azərbaycançılıq anlayışının bütün dünyada yüksəldilməsi nəticəsində bu gün heç bir azərbaycanlı özünü bir rusdan, bir almandan, bir fransızdan, nə də bir ingilisdən aşağı hesab etmir. Milli qürur yalnız sözdə deyil, həm də işdə, əməldədir. Ölkədə abadlaşan, yeni rəmzlərini yaradan şəhərlər (xüsusilə Bakı), kəndlər, çəkilən yollar, yaradılan təhsil müəssisələri, tətbiq edilən müasir idarəçilik texnologiyaları, dünya standartları ilə müqayisə olunan müxtəlif təsisatlar, idmanda, mədəniyyətdə indiyə qədər bu miqyasda görünməmiş beynəlxalq uğurlar Azərbaycan insanını mənən, ruhən yüksəldən, belə demək mümkünsə, onun mənəvi saflaşmasını təmin edən hadisələrdir.

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin ikinci mühüm əlaməti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə, onun milli dövlət quruculuğu fəlsəfəsinə ölkə, eləcə də dünya miqyasında layiq olduğu bir ehtiramla, intellektual-analitik həssaslıqla yanaşılmasıdır. Və bu ona görə zəruridir ki, Heydər Əliyev azərbaycançılıq ideologiyasının bir-birindən əsaslı şəkildə fərqli olan iki - üçüncü və dördüncü təkamül mərhələsinin lideri (müəllifi!) olmaqla yanaşı, bu gün davam edən beşinci mərhələsinin perspektivlərini də müəyyənləşdirmişdir.

*Üçüncü* mühüm əlamət, heç şübhəsiz, azərbaycançılıq ideologiyasının tərkib hissələri olan türkçülük, müsəlmançılıq və müasirliyin üzvi vəhdətdə, heç birinə digərindən daha böyük üstünlük vermədən, bir bütöv halında qəbul edilərək xalqın milli mənafeləri naminə həyata keçirilməsidir. Bu məsələ ona görə çox əhəmiyyətlidir ki, Azərbaycan xalqı müxtəlif tarixi dövrlərdə (azərbaycançılıq ideologiyasının təşəkkül tapıb formalaşdığı XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq) gah türkçülüyə, gah müsəlmançılığa, gah da müasirliyə əlahiddə üstünlük verilməsindən irəli gələn ictimai-siyasi problemlərlə üz-üzə dayanmağa məcbur olmuşdur. Və bunun da mənfi nəticələrini, xüsusilə milli inteqrasiyasının, mütəşəkkilliyin süni olaraq pozulmasını, yaxud zəifləməsini tarix, yəqin ki, həmişəlik öz yaddaşına yazmışdır.

İlham Əliyevin siyasi-ideoloji fəaliyyətində türkçülük Azərbaycan xalqının öz mənşəyi etibarilə türk etnosundan yaranması həqiqətinin milli ictimai dərkindən başlayıb müasir türk dünyasının üzvi tərkib hissəsi olması, beynəlxalq aləmdə türk dünyasının ortaq maraqlarının cəsarətlə müdafiəsinə qədər gedir. Və təsadüfi deyil ki, Azərbaycan Prezidenti türk dünyasının öndə gedən liderlərindən biri kimi böyük nüfuz sahibidir.

İslam (müsəlman) dünyasına mənsubluq da bugünkü Azərbaycanın həm mənəvi-mədəni, həm də ictimai-siyasi xarakterində bütün parlaqlığı ilə təzahür edir. İlham Əliyevin müsəlman xalqlarına qarşı müəyyən beynəlxalq dairələrdə aparılan mürtəce, antihumanist kampaniyalara dəfələrlə ən yüksək tribunalardan öz etirazını bildirməsi, Azərbaycanın bir nümunəvi müsəlman ölkəsi olaraq inkişafı buna sübutdur. Və eyni zamanda bugünkü Azərbaycan xalqı dünyaya açıq, müasir dünyanın iqtisadi, sosial-siyasi və mədəni texnologiyalarını inamla mənimsəyən, onun (müasir dünyanın) qlobal idarəçiliyində get-gedə güclənən imkanları səviyyəsində iştirak edən xalqdır.

Müasir qloballaşma şəraitində Azərbaycan dünyaya sürətlə inteqrasiya olunur. Azərbaycan yalnız regionda deyil, eyni zamanda dünyada maraqlı bir dövlətdir. Ona görə də ölkənin mədəniyyət siyasəti, o cümlədən dil siyasəti də dünya üçün maraqlıdır. Azərbaycan dilinin, eyni zamanda türk dilləri miqyasında mövqeyi get-gedə sürətlə yüksəlir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarında dil, ədəbiyyat məsələlərinə daim xüsusi diqqət göstərilir. Müasir beynəlxalq münasibətlər şəraitində ana dilini həm inkişaf etdirmək, həm də qorumaq, həqiqətən də çox əhəmiyyətli məsələdir. Prezident İlham Əliyevin yeritdiyi münasibət göstərir ki, dövlətimiz, həqiqətən xalqın arzuları, idealları ilə yaşayan bir dövlətdir...

Türkçülük, müsəlmançılıq və müasirlik triadası bu gün Azərbaycanda klassik formulunda (və tipologiyasında) tətbiq edilməklə qalmayıb mərhələnin (və dövrün) tələblərinə uyğun olaraq yaradıcılıqla yaşanır ki, bu da Azərbaycan dövlətinin yürütdüyü tarazlaşdırılmış, humanist və uzaqgörən (mövcud problemlərin tezliklə həllinə yönəlmiş perspektivli) siyasətin nəticəsidir.

Müxtəlif mədəniyyətlərə, dünyagörüşlərinə təmkinli dialoq əsasında hörmətlə yanaşılması, qloballaşan dünyanın çağırışlarına həssas, anlamlı münasibət, multikulturalizm azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin, fikrimizcə, mühüm əlamətlərindən dördüncüsü hesab oluna bilər. Nə üçün? Ona görə ki, hər hansı ideologiya, nə qədər mütərəqqi olsa da, özünü təcrid edirsə, həm tarixi (passiv), həm müasir (aktiv), həm də gələcək (perspektiv) çox müxtəlif (biri digərini inkar, yaxud təsdiq edən, yaxud da bir-birinə loyal və ya liberal münasibətlərdə olan) ideologiyalarla hesablaşmazsa, prinsip etibarilə, yaşaya bilməz.

Azərbaycan xalqı (və dövlətçiliyi) tərəfindən azərbaycançılıq ideologiyasının tətbiqi, müdafiəsi və inkişaf etdirilib təkmilləşdirilməsi dünya miqyasında çox müxtəlif (və qaynar!) ideoloji proseslər kontekstində baş verdiyi hamıya məlumdur. Və bu proseslər azərbaycançılığı birmənalı inkar edə bilmədiyi kimi, birmənalı təsdiq də edə bilməz. Lakin Azərbaycan xalqının milli ideologiyasının nəinki danılmaz, hətta mübahisəsiz bir üstünlüyü vardır ki, onun mahiyyətində (fəlsəfəsində və ya metafizikasında) üç tamamilə humanist (və insan cəmiyyətinin təhtəlşüur, yaxud təbii bir şəkildə, "müdaxiləsiz" yaratdığı!) dəyər komponenti ifadə olunur:

1) etnik mənsubiyyət;

2) dini mənsubiyyət;

3) dünyəvi mənsubiyyət.

Bu ideologiyada öz əksini tapmış fəlsəfə və ya metafizikada, eləcə də onun mənsub olduğu (və onu yaradan) xalqın təfəkküründə nə etnik məhdudluq, nə dini dözümsüzlük, nə də antihumanizm yoxdur. O var ki, Azərbaycan xalqı da dünyanın bütün digər xalqları kimi, müəyyən bir etnik mənşəyə, müəyyən bir dini dünyagörüşə mənsubdur və bütün digər xalqlar kimi, müasir dünyanın üzvi tərkib hissəsidir

*Beşinci* əlamət Azərbaycan xalqının dünya miqyasında milli-mənəvi, mədəni bütövlüyünün möhkəmlənməsi üçün ardıcıl mübarizə aparılmasıdır ki, bunun müsbət nəticələrini görməmək mümkün deyil.

Tarixi taleləri elə gətirmişdir ki, azərbaycanlıların və ya Azərbaycan türklərinin bu gün yalnız beşdən biri müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Təxmini hesablamalara görə, dünya azərbaycanlılarının beşdən dördü öz tarixi Vətənində yüz (hətta min!) illərlə necə məskun olmuşdursa, bu gün də məskundur. Ona görə də əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bir siyasətin - Dünya azərbaycanlılarının həmrəyliyinin miqyasının genişləndirilməsi siyasətinin müasir mərhələdə Azərbaycan dövlətçiliyi tərəfindən uğurla davam etdirilməsi heç bir alternativ qəbul eləməyən bir zərurət olub azərbaycançılıq ideologiyasını zənginləşdirən, ona güclü enerji verən, onun məzmununu (hətta fəlsəfəsini) bütövləşdirən konseptual hadisədir. Hər şeydən əvvəl ona görə ki, dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, kiçik istisnaları nəzərə almasaq, azərbaycanlılar eyni etnik mənşəyə, eyni dinə mənsub olub eyni mental xüsusiyyətlərin, eyni adət-ənənələrin daşıyıcısıdırlar. Və onların eyni bir dilləri - Azərbaycan dili, yaxud Azərbaycan türkcəsi mövcuddur. Əlbəttə, qloballaşan müasir dünyada azərbaycanlıların siyasi-inzibati sərhədləri aşaraq bir-birlərilə sıx ünsiyyətə girmələri, ümummilli maraqlarını humanizm, insan hüquqları çərçivəsində təmin etmələri yalnız milli yox, həm də insani (ümumbəşəri!) bir ehtiyacdır ki, əlahiddə hadisə olmayıb bütün millətə xasdır

Azərbaycan xalqının (və insanının) dünyanın inkişaf etmiş xalqları (və insanları) ilə müqayisədə ikinci, hətta üçüncü dərəcəli olması kompleksinin sürətlə aradan qaldırılması baxımından görülən işlərə (və onun uğurlu nəticələrinə), fikrimizcə, *altıncı* əlamət kimi baxmaq olar.

Etiraf etməliyik ki, azərbaycanlılarda uzun on illər (hətta əsrlər!) belə bir kompleks olmuşdur. Ziyalıların öz ana dillərindən (və prinsip etibarilə, mənsub olduqları xalqdan) imtina edib müxtəlif əcnəbi dillərdə danışıb yazmaları, özlərinə əcnəbi soyad formaları qəbul etmələri və s. həmin "gerilik" kompleksinin təzahürləri (və nəticələri) idi ki, milli tarixin son mərhələsinə qədər bu və ya digər dərəcədə davam edirdi Ancaq bu gün heç bir azərbaycanlı özünü nə bir rusdan, nə bir almandan, nə bir fransızdan, nə də bir ingilisdən aşağı hesab etmir. Və milli qürur yalnız sözdə deyil, həm də işdə, əməldədir. Ölkədə abadlaşan, "yeni rəmzlər"ini yaradan şəhərlər (xüsusilə Bakı!), kəndlər, çəkilən yollar, yaradılan təhsil müəssisələri, tətbiq edilən müasir idarəçilik texnologiyaları, dünya standartları ilə müqayisə olunan müxtəlif təsisatlar, idmanda, mədəniyyətdə indiyə qədər bu miqyasda görünməmiş beynəlxalq uğurlar Azərbaycan insanını mənən, ruhən yüksəldən, əgər belə demək mümkünsə, onun katarsisini təmin edən elə hadisələrdir ki, yalnız bu günlə məhdudlaşmayıb onun (Azərbaycan insanının) gələcək taleyini, xarakterini müəyyən edir. Və bu taleyüklü işlər, əməllər Azərbaycan xalqının tarixində həmişəlik olaraq İlham Əliyevin adı ilə qalacaqdır...

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin *yeddinci* əlaməti həm iqtisadi, həm siyasi, həm də mədəni sahələrdə (bu sahələrin təsəvvürə gətirilməsi belə çətin olan çox geniş spektrində) beynəlxalq əlaqələrin, başqa sözlə, Azərbaycan-Dünya dialoqunun zəngin təcrübəsinin qazanılmasıdır. Bu isə ilk növbədə o deməkdir ki, azərbaycançılıq ideologiyası (və Azərbaycan xalqının milli idealları), bir vaxtlar olduğu kimi, məhdud bir miqyasda qalıb, "özümüz deyib, özümüz eşidək" prinsipi ilə mövcud olmur, universallaşır, hüdudlarını genişləndirir, ümumən insan (və dünya) təfəkkürü mövqeyindən görünüb etiraf olunur... Tarixi (və cari) rəqibləri açıq mübarizəyə çəkir, onların hansısa gizli "laboratoiyalar"da hazırlanmış məkrli planlarını alt-üst edir...

Beynəlxalq "Dialoq"lara ev sahibliyi edən Azərbaycan indiyə qədər görünməmiş bir miqyasda müxtəlif ideyaların, ideologiyaların həmsöhbət olmasına inamla münsiflik etdikcə azərbaycançılıq məfkurəsi də zənginləşir, beynəlxalq nüfuzunu gücləndirir, yüksək standartlı paradiqmalara yiyələnir...

*Səkkizinci* əlamət Azərbaycan xalqının intellektual səviyyəsinin yüksəldilməsi, müasir texnologiyalara yiyələnməsinin sürətlənməsi, perspektivli özünüifadə (və özünütəsdiq) metodlarının, üsullarının və vərdişlərinin xüsusilə gənc nəsil tərəfindən mənimsənilməsidir.

Etiraf etmək lazımdır ki, azərbaycançılıq ideologiyasının gənc nəsil tərəfindən bu qədər kütləvi (və intellektual!) səviyyədə mənimsənilməsi heç bir mərhələdə mümkün olmamışdır...

Azərbaycanın regionda, ümumən beynəlxalq aləmdə söz sahibi olması, onun mövqeyi ilə hesablaşılması, çoxstandartlılığı, xüsusilə cari konyukturluluğu ilə tanınan dünyanın "haqq-hesab"ından kənarda qalıb təcrid olunmaması, çox güman ki, *doqquzuncu* əlamətdir. Və bu əlamətin özünəməxsusluğu ondan ibarətdir ki, Azərbaycan xalqının milli ideologiyası çevik, elastik, diplomatik resurslara yiyələnmiş, hər hansı "gözlənilməz" ideoloji hücumlara qarşı müqavimət (hətta əks-hücum) "immunitetlər"i qazanmışdır...

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin onuncu əlaməti həmin ideologiyanın inkişafı üçün geniş perspektivlər təmin etməsidir ki, bu, milli ideologiyanın (azərbaycançılığın) gələcəyi barədə tamamilə nikbin fikirdə olmağa hər cür imkanlar verir. Xüsusilə o mənada ki, azərbaycançılıq ideologiyası qarşısında bu gün polemika üçün hüdudlar qoyacaq heç bir maneə, yaxud həmin ideologiyanın təkamülünü ya ləngidəcək, ya da süni şəkildə sürətləndirəcək heç bir konyuktur müdaxilə yoxdur.

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir.

Bugünkü Azərbaycan gerçəkliyinin bütün dünyada diqqətçəkən bir cəhəti də müxtəlif mədəniyyətlərə, dünyagörüşlərinə təmkinli dialoq əsasında hörmətlə yanaşılması, qloballaşan dünyanın çağırışlarına həssas, anlamlı münasibət, multikulturalizm hesab oluna bilər.

Bütün bu deyilənlər yalnız bu günlə məhdudlaşmayıb Azərbaycan insanının gələcək taleyini, xarakterini də müəyyən edir. Bu taleyüklü işlər, əməllər Azərbaycan xalqının yeni tipli, modern düşüncəli lideri Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi tarixi ildönümünün xoş duyğularını yaşamaqda davam etdiyimiz bir məqamda azərbaycançılıq məfkurəsinin dünya boyu uğurla yayılmasını, soydaşlarımızı vahid bir hədəfə - milli həmrəyliyə səfərbər etdiyini düşünmək olduqca qürurverici bir duyğu-düşüncədir. Yeni ildə və qarşıdakı mərhələdə milli dövlətçilik məfkurəmiz olan azərbaycançılığa daha uca mövqe, xalqımıza möhkəm birlik, sarsılmaz həmrəylik arzu edirik!

**Nizami CƏFƏROV,**
**akademik, millət vəkili.**

# Ermənilərin törətdikləri soyqırımların mətbuatda əksi

**Birinci Dünya müharibəsinin əvvəlindən başlayaraq çar Rusiyasının bir çox yerlərində olduğu kimi Cənubi Qafqazda da siyasi vəziyyət xeyli gərginləşmişdi. Rusiya və digər Antanta dövlətlərinin müharibənin gedişatında başlıca məqsədi Osmanlı imperiyasını dağıtmaq və ərazisini öz aralarında bölüşdürməkdən ibarət idi. Bu məqsədlə ermənilərdən alət kimi istifadə olunması, daşnak silahlı birləşmələrinin köməyi ilə Anadoluda dövlət əleyhinə qiyam qaldırılması məsələsi bir vəzifə kimi qarşıya qoyulmuşdu. Çar Rusiyası başda olmaqla bütün Antanta ölkələri Osmanlı dövləti ərazisində yaşayan ermənilərə hərbi yardım, silah-sursat göndərməyə hər an hazır idi. Antanta ölkə başçıları Osmanlı dövlətinin parçalanması müqabilində ermənilərə, Anadolunun şərqində - Bitlis, Diyarbəkir, Ərzurum, Van, Xarput və Sivas bölgələrində "erməni dövləti"nin yaradılacağına vəd vermişdi.**

Müharibənin ikinci ilində ermənilər Osmanlı dövləti ərazisində böyük sayda qırğınlar törətməsinə baxmayaraq öz məqsədlərinə nail ola bilmədilər. Onların əsas istəyi Şərqi Anadoluda yuxarıda adlarını çəkdiyimiz vilayətləri ələ keçirərək öz dövlətlərini yaratmaq idi. Arzularının boşa çıxdığını görən erməni millətçi rəhbərləri bu dəfə Cənubi Qafqazda, Azərbaycan ərazisində öz istəklərini gerçəkləşdirməyə başladılar. Onlar Göyçə gölünün ətrafı, Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazisində erməni dövləti yaratmaq üçün məkrli planlar hazırlayırdılar. Erməni daşnakları həm Qafqazdakı rus qoşunlarının tərkibində öz saylarını artırır, həm də milli hərbi qüvvələrinin gücləndirilməsinə can atırdılar. 1915-ci ildə, hələ Cənubi Qafqazda gürcü və azərbaycanlıların heç bir milli hərbi hissələri olmadığı halda, ermənilərin 9 drujinası təşkil olunmuşdu [Qəhrəmanov N. I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili. Bakı: Hərbi Nəşriyyat, 2007, s. 154]. Bu hərbi qüvvələr sonralar Azərbaycan ərazisində dinc müsəlman-türk əhaliyə qarşı soyqırımlar törətmək üçün istifadə olunacaqdı.

1917-ci il fevral ayının əvvəlinə qədər Cənubi Qafqazdan rus ordusuna çağırılanlar arasında ermənilər çoxluq təşkil edirdilər: 304164 çağırışçıdan 121921 nəfəri erməni idi ki, bununla da ermənilər Qafqazdakı rus hərbi hissələrinin əksəriyyətində böyük təsirə malik idilər [Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX - начале XX веков. Баку: Элм, 1994, с. 98]. Şübhəsiz ki, bu da səbəbsiz deyildi. Hələ 1915-ci il fevralın 22-də Misirdə olan Rusiya nümayəndəsi Smirnov Xarici İşlər Nazirliyinə ünvanladığı məktubunda yazmışdı: "Amerikadan, Fransadan və Misirdən toplaşan 1000-ə yaxın erməni, "Hnçak" partiyasına müraciət edərək Rusiya ordusu tərkibində Qafqaz bölgəsində döyüşmək üçün öz xidmətlərini təklif edirlər" [Qəhrəmanov N. I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili. Bakı: Hərbi Nəşriyyat, 2007, s. 10].

Cənubi Qafqazda Azərbaycan türklərinin milli hərəkatına qarşı mübarizədə əsas qüvvələrdən biri də, Bakıda yaradılmış erməni-daşnak silahlı dəstələri idi. Bir tərəfdən Bakı şəhəri və onun ətrafında olan ermənilərin səfərbər edilməsi, digər tərəfdən isə döyüşlərdən tərxis olunmuş erməni əsgərlərinin buraya cəlb olunması 1918-ci ilin mart hadisələri ərəfəsində Bakıda xeyli erməni-daşnak qüvvələrin (S.Şaumyanın məlumatına əsasən onların sayı 3-4 min nəfər təşkil edirdi) cəmləşməsi ilə nəticələnmişdi [Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX - начале XX веков. Баку: Элм, 1994, с. 157].

T.ü.e.d. B.İ.Nəcəfov araşdırmalarında qeyd edirdi ki, Erməni Milli Şurası 1918-ci ilin martında cəbhədən qayıdan erməni əsgərlərinə müraciət edərək onları Bakıda erməni-daşnak qüvvələrinin sırasında birləşməyə, silahını kimsəyə təhvil verməyərək özündə saxlamağa və yeri gələndə millətin mənafeyi naminə onu təcavüzkarlara qarşı işlədilməsinə hazır olmağa çağırırdı [Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX - начале XX веков. Баку: Элм, 1994, с. 54].

O vaxt Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan Azərbaycanın müstəqilliyi uğrunda mücadiləyə qalxmış milli qüvvələrə müraciətlə demişdi: "Sizə Azərbaycanın müstəqilliyi yerinə bir məzarlıq verəcəyəm" [Qəhrəmanov N. I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili. Bakı: Hərbi Nəşriyyat, 2007, s. 250]. Martın 29-dan başlanan qırğınlar demək olar ki, Bakının hər bir ərazisini əhatə etmiş və 3 gün ərzində şəhərdə 12 min nəfərə qədər dinc müsəlman qətlə yetirilmişdi. Qırğınlara S.Şaumyan başda olmaqla Stepan Lalayev və Tatevos Əmiryan rəhbərlik edirdilər. Daşnak -bolşevik caniləri qadına, uşağa, qocaya fərq qoymur, qarşılarına çıxan müsəlman əhalisini yerindəcə güllələyir və süngüdən keçirirdilər. Qırğınlar Bakı ilə yanaşı, Qubada, Şamaxıda, Göyçayda, Salyanda, Lənkəranda, Naxçıvanda, Zəngəzur və İrəvanda da dinc müsəlman əhalisinə qarşı xüsusi amansızlıqla həyata keçirilirdi.

1918-ci ildə erməni daşnakları tərəfindən müsəlmanlara qarşı törədilən soyqırımlar Azərbaycanın bir çox qabaqcıl ziyalılarını ciddi narahat edir və ölkə ictimai fikrində bu qanlı hadisələrə sonsuz qəzəb, kəskin etiraz sədaları ucalırdı. İctimai rəyin cəmiyyətə çatdırılması və yayılmasında başlıca vəzifəni mətbuat orqanları həyata keçirməyə çalışırdı. Həmin illərdə Şimali Azərbaycanda nəşr olunan "Kaspi" (1881-1919), "Açıq söz" (1915-1918), "Şeypur" (1918-1919), "Azərbaycan" (1918-1920), "Азербайджан" (1918-1920) və b. qəzet və jurnallarda daşnak-bolşevik ermənilərin azərbaycanlılara qarşı amansız soyqırımlarını xalqa çatdırır, faciənin qarşısının alınması üçün çıxış yolu axtarırdılar. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyət göstərmiş "Azərbaycan" və "Азербайджан" qəzetləri qırğınların baş verdiyi yerlərdən daimi olaraq materiallar dərc edir, faciənin miqyasının get-gedə böyüdüyünü böyük ürək ağrısı ilə oxuculara çatdırırdı. 1919-cu il martın 30-da soyqırımın ildönümündə, Bakıda nəşr olunan "Азербайджан" qəzetində Şamaxı qırğınları ilə bağlı "Şamaxının son günləri" adlı məqalə dərc olunmuşdu. Məqalədə ermənilərin Şamaxıda törətdikləri qırğınların səbəbləri və bu qanlı hadisələr zamanı yaşanan ağlasığmaz faciələr əks olunmuşdu.

Qəzet yazırdı ki, Birinci Dünya müharibəsi döyüşlərindən qayıdan erməni əsgərləri özləri ilə bir, hətta iki silah gətirirdilər və bu silahları da sonradan öz həmyerlilərinə paylayırdılar. Məqalədə qeyd olunurdu ki, 1918-ci ilin yanvarından Şamaxıya Bakıdan emissarlar gələrək, ermənilər arasında müsəlmanların əleyhinə geniş əks-təbliğat aparmağa başlamışdılar. Emissarlar təkcə ermənilər arasında deyil, eyni zamanda malakan və yəhudilər arasında da təbliğat aparmışdılar ki, guya müsəlmanlar sizi qıracaqlar. Əslində isə, uzun illər boyu bir yerdə yaşayan malakan və yəhudilərlə azərbaycanlı əhali arasında bir dəfə də olsun qarşıdurma yaşanmamışdı. Məqalə müəllifi göstərirdi ki, belə bir ağır vaxtda, Şamaxını tərk edən rus əsgərləri də öz hərbi hissələri və silahlarını ermənilərə təhvil verib gedirdilər. Bunun müqabilində Şamaxıda azərbaycanlıların nə hərbi, nə də silahlı dəstəsi yox idi. Hətta yerli ziyalılar, xüsusən müsəlman dindarları hər hansı qarşıdurmanın baş verməməsi üçün bütün qüvvələrini səfərbər etmişdilər. Lakin S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti erməni hərbi hissələrini Şamaxıya göndərərək azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətmişdilər [Газ. "Азербайджан", 1919 г. 30 март, № 67].

1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetində bir çox dövlət rəsmiləri, parlament üzvlərinin və ziyalıların soyqırımla bağlı xeyli sayda yazı və məqaləri dərc olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentin üzvü olmuş Mehdibəy Hacıbababəyov Şamaxı qırğınlarından sonra şəhərə səfəri zamanı gördüklərindən heyrətə gələrək yazmışdı ki, baş verən hadisələr zamanı Şamaxı və ətraf kəndləri tamamilə dağıdılıb, qeyri-məskun hala düşdüyündən, Kürdəmirdən gediş-gəliş tamamilə kəsildiyindən indiki halda heç bir nəqliyyat vasitəsi mövcud deyildir. "Kürdəmirdən Şamaxıya doğru yol üzərində olan kəndlər tamamilə yerlə-yeksan edilmişdir. Şamaxı şəhəri bir halətdədir ki, onu təsvir etmək mümkün deyildir. Bir dənə də olsun salamat binaya təsərüf edilməyir" ["Azərbaycan" qəzeti, 16 iyul 1919].

Daşnak ermənilərin Şamaxı şəhəri və qəzasında törətdikləri qəddarlıqları Pompey şəhərinin fəlakəti ilə müqayisə edən müəllif, erməni bolşeviklərin şəhəri xüsusi bir plan əsasında dağıtdıqlarını göstərərək qeyd edirdi: "Bunu yapanların şəhərdə bir sükunət, ömrən asari-həyat olmasın deyə əllərindən gələn xarab və şumluğu icra etməklə az da olsa, insaf, mürvət və insaniyyət tərəfini gözləməmişlər. Şəhəri xarabazara döndərməklə kirvələr olmazın alçaqlığa tənəzzül etmişlər. Gözlərini yumub əllərini açmışlar" ["Azərbaycan" qəzeti, 28 oktyabr 1919].

Erməni vandalları Şamaxıda bütün evləri yandırmış, on altı məsciddən heç biri salamat qalmamışdı. Şamaxılıların nəinki evləri, it və pişikləri də erməni quldur dəstələri tərəfindən tələf edilmişdi. "Azərbaycan" qəzeti müxbirinin yazdığı kimi, "Allah evinə, insanların, heyvanların diriliyinə xidmət edən, bulaqlara, məzarıstanda və adı xamuşanda məskən salan ölülərin, meyitlərin qəbir daşlarına top, tüfəng atıb dağıdan asilərin, yağıların ayaq basdıqları mövqelərdə abadlıq olmayacağı mühəqqəqdir ["Azərbaycan" qəzeti, 28 oktyabr 1919].

Qəzetin müxbiri qeyd edir ki, ermənilərin törətdikləri bütün bu qeyri-insani hərəkətlərə baxmayaraq, şəhərə qayıdan azərbaycanlılar yerli ermənilərə, onların kilsəsinə toxunmadılar. Cümhuriyyət ziyalıları "Azərbaycan" və "Азербайджан" qəzetlərində Bakıda, Göyçə və Zəngəzurda baş vermiş soyqırımlarla bağlı da geniş sayda yazılar dərc etmişdilər. Erməni millətçilərinin yaratdıqları Ararat Respublikasının qeyri-qanuni əməlləri haqqında Dağlıq zolağın 5-ci sahəsinin müsəlman əhalisi müvəkkili İsmayıl Sultanovun Gəncə qəzası rəisinin adına göndərdiyi məlumatın çıxarışı "Azərbaycan" qəzetində dərc olunmuşdu. Çıxarışda deyilirdi: "Bu ilin 13 aprel tarixindən başlayaraq Ararat Respublikasının qoşunları Göyçə rayonunun, Yeni Bəyazid qəzasının dinc müsəlman əhalisinə qarşı hücuma keçmişdir. Məqsəd, Göyçə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləməkdir.

Hazırda 60 000 əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış, əhalisi isə qırılmışdır. Erməni qoşunları əllərinə düşən müsəlmanları heç vəchlə sağ buraxmır, ağlagəlməz işgəncələrlə onlara zülm edir, bəzi qadınları və yeniyetmə qızları çıxmaq şərtilə, qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər, malı, dövləti acgöz erməni qoşunları tərəfindən ələ keçirilib, öz aralarında bərabər bölüşdürülür, sağ qalanlar isə qoşunlar tərəfindən təqib edilir, çox az miqdarda Gəncə qəzasının beşinci sahəsinin kənarlarına axışıb gəlirlər.

**(davamı 8-ci səhifədə)**

# Ağdam: sabaha açılan qapılar

**Ağdam təbiətin yaratdığı canlı muzeyi xatırladırdı, bu qədim diyarın hər daşının altında bir tarix yatırdı, burada zəngin yataqlar var idi. Ermənistanın hərbi təcavüzü rayonun iqtisadiyyatına, mədəni həyatına, ən əsası isə insanların taleyinə çox ağır zərbələr vurub. Erməni vandalizmi qədim bir şəhəri yer üzündən silib, onun xarabalıqları haqdan və ədalətdən danışmağı sevən dünyanın gözü qarşısında yüz minlərlə insanın acı taleyindən xəbər verir.**



Bu gün cəbhə bölgəsində, düşmən silahlarının susmadığı barıt qoxulu torpaqda insanlar əkin-biçinlə məşğul olur, qurub-yaradır, ötən müharibənin vurduğu yaraları sağaldır, problemləri aradan qaldırır və gələcəyə çox nikbin baxırlar. Ağdamlıların yekdil fikri belədir ki, ötən illər ərzində onlara göstərilən dövlət qayğısına əməli işlərlə cavab versinlər. Dövlətimizin başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində rayon ərazisində yeni qəsəbələr salınır, müharibədən zərər görmüş binalar, evlər bərpa olunur.

Vaxtilə rayonun ən ucqar kəndi hesab olunan Quzanlıya indi şəhər statusunun verilməsinin vaxtı çatıb. Qədim tarixi olan Xındırıstan kəndi, eləcə də Çəmənli, Qaradağlı, Zəngişalı, Üçoğlan və digər kəndlərdə də əhalinin həyat şəraiti daha da yaxşılaşır, yeni evlər tikilir, gənc ailələrin sayı durmadan artır. Yaralı torpaq öz övladlarının zəhməti, təəssübkeşliyi, doğma yurda məhəbbəti sayəsində, sözün əsl mənasında öz tarixinin yeni səhifələrini yazır.

Ötən əsrin 70-80-ci illərində Ağdam həm iri kənd təsərrüfatı rayonu, həm də böyük sənaye mərkəzi kimi şan-şöhrət qazanmışdı. Ağ damlı bu şəhər eyni zamanda mədəniyyət ocağı, teatr, musiqi mərkəziydi. Bu qədim yurd yeri görkəmli insanların, alimlərin, məşhur muğam ustalarının, yazıçı və şairlərin, əmək qəhrəmanlarının beşiyi kimi yaddaşlara hopub.

Məşhur məsəldə deyildiyi kimi, burda bir uşağı küsdürəndə muğam üstündə ağlayıb, Ağdam həm də Qarabağın toy otağıydı, öz ənənəsi, dəst-xətti olan muğam ustaları Azərbaycanın mədəniyyətinə, incəsənətinə, muğam dünyasına sanballı töhfələr veriblər. Bu gün onların adı qürur və iftixar hissi ilə çəkilir, dövlət tərəfindən layiqincə qiymətləndirilir.

Bəşəriyyətin mənəvi irsinin incilərindən olan muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən sanballı işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da tarixi töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun qeyri-maddi irsinin şah əsərləri siyahısına salınıb.

Quzanlı qəsəbəsində istifadəyə verilən Muğam Mərkəzi ağdamlılara dövlət tərəfindən göstərilən ən böyük diqqət və qayğının bariz nümunəsidir. Ağdam Muğam Mərkəzinin inşasına 2016-cı ilin oktyabrında başlanılıb. İnşaat işləri bu ilin sentyabrında başa çatdırılıb. Muğam Mərkəzinin ərazisi 7782 kvadratmetr, tikintialtı sahəsi isə 1800 kvadratmetrdir. İkimərtəbəli bina yüksək zövqlə müasir səviyyədə inşa olunub. Burada qrim, gözləmə, texniki, inzibati, yardımçı və digər otaqlar yaradılıb.

Mərkəzdə musiqi alətlərinin təmiri emalatxanası da fəaliyyət göstərəcək. Bu mərkəzin konsert zalı da müasirliyi ilə seçilir. Buradakı 328 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri keçirmək üçün hərtərəfli şərait var. Mərkəzdəki sinif otaqlarında muğamın sirlərinə yiyələnmək üçün bütün imkanlar mövcuddur. Muğam Mərkəzinin yerləşdiyi ərazi abadlaşdırılıb, 0,6 hektar sahədə istirahət parkı yaradılıb, yaşıllıq zolağı salınıb, gül kolları əkilib, işıqlandırma sistemi quraşdırılıb.

Bu ilin noyabr ayının əvvəlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonuna səfər zamanı Muğam Mərkəzinin açılışında iştirak ediblər. Burada Azərbaycanın görkəmli muğam ustaları ilə keçirilən görüşdə dövlət başçısı İlham Əliyev görülən işlərə yüksək qiymət verərək deyib:

—Biz son illər ərzində Ağdam rayonunun inkişafına da böyük diqqət göstərmişik. Rayonun infrastrukturunun yenilənməsi, yaradılması istiqamətində böyük işlər görülüb. Bu gün biz gözəl Muğam Mərkəzinin açılışını qeyd edirik. Eyni zamanda, bu gün Ağdam rayonunda xalça fabrikinin açılışı gözlənilir, iki yol layihəsinin açılışını qeyd etdik.

Bu yolların uzunluğu 66 kilometrdir. Ümumiyyətlə, deyə bilərəm ki, Ağdam rayonunun yol infrastrukturu təxminən 95 faiz təzələnib, yeni yollar salınıb. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Ağdam rayonunda qazlaşdırmanın səviyyəsi 98 faizdir. İçməli su və suvarma suyu ilə bağlı problemləri həll etmək üçün mən 2016-cı ildə 30 subartezian quyusunun qazılması haqqında Sərəncam imzalamışam. Növbəti Sərəncam imzalanacaq və əlavə 35 subartezian quyusunun qazılması, eyni zamanda, yeni məktəbin tikintisi təmin ediləcəkdir.

Əvvəlki illərdə Ağdam rayonunda xəstəxana, doğum evi, uşaq xəstəxanası, Olimpiya İdman Kompleksi tikilib. Ağdam rayonu ərazisində 18 yeni köçkün qəsəbəsi salınıb. Mənə verilən son məlumata görə, Ağdam rayonunda hazırda 93 min insan yaşayır. Onların bir hissəsi hələ ki, öz doğma kəndlərində yaşamırlar, çünki kəndləri işğal altındadır, amma yenə də Ağdam rayonunun ərazisində yaşayırlar. Gün gələcək, onlar öz doğma kəndlərinə qayıdacaqlar, gün gələcək belə gözəl, möhtəşəm Muğam Mərkəzi Ağdam şəhərində yaradılacaqdır.

Cəbhə bölgəsində avtomobil yollarının tikintisinə ciddi diqqət göstərilir. Yol rahatlıq, mədəniyyət, inkişaf deməkdir. Bölgədə istehsal olunan kənd təsərrüfatı məhsulları maneəsiz bazarlara çatdırılır. Tərtər-Hindarx avtomobil yolunun 18-41-ci kilometrlik hissəsi və Ağdam-Hindarx-Ağcabədi avtomobil yolunun 23-37-ci kilometrlik hissəsində görülən yenidənqurma işləri başa çatdırılıb. Bundan başqa, Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolu da istifadəyə verilib. Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yollarının tikintisi başa çatdırılıb.

Vaxtilə adı dillərdə gəzən, şöhrəti dünyanı dolaşan, bir çox mötəbər sərgilərdə layiqli yer tutan, anaların cehiz tədarükündə başda dayanan, gözəlliyi və rəngarəngliyi ilə diqqəti daha çox cəlb edən Ağdam xalçaları xalqımızın xalçaçılıq mədəniyyətində özünəməxsus yer tutur. Qədimliyi ilə seçilən bu xalçalar Azərbaycan dekorativ tətbiqi sənətinin nadir incilərindən hesab olunur. İşğaldan əvvəl bu qədim tarixi olan şəhərdə böyük xalçaçılıq fabriki fəaliyyət göstərirdi.

Bu istehsal müəssisəsində Qarabağ xalçalarının ən qədim çeşniləri və müasir naxışları ilə toxunan xalçalar qiymətli sənət əsəri kimi qorunub saxlanır, eyni zamanda dünyanın bir çox ölkələrinə ixrac olunurdu. Ermənistanın hərbi təcavüzü bu qədim el sənətinə də ağır zərbə vurdu, təcrübəli və mahir xalçaçılar öz yurdlarından didərgin düşdülər.

Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən ardıcıl tədbirlər, bununla bağlı Dövlət Proqramının qəbul edilməsi, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində həyatın bütün sahələrində inkişafa nail olunub. O cümlədən də, xalçaçılıq sənəti yeni mərhələyə qədəm qoyub.

"Azərxalça" ASC-nin filiallarından biri də xalçaçılığın zəngin ənənələrinin qorunub saxlanmasında və inkişaf etdirilməsində mühüm rol oynayan Ağdam rayonunda yaradılıb.

Buradakı xalça istehsalı emalatxanasında 80 nəfərdən çox toxucu çalışır. Onların əksəriyyəti gənclərdir. Toxucular "Azərxalça"nın təşkil etdiyi tədris-hazırlıq kurslarında bu sənətin sirlərinə yiyələniblər. Emalatxanada indiyədək min kvadratmetrə yaxın məhsul istehsal edilib, 120 xalça kəsilib.

Quzanlıdakı fabrikdə Qarabağ qrupu Azərbaycan xalçalarının toxunmasına üstünlük verilir. Bu da tarixi Qarabağ xalçalarının yaşadılmasına xidmət edir. Qarabağ hər zaman özünün yüksək bədii zövqlə toxunmuş xalçaları ilə məşhur olub.

1960-1970-ci illərdə respublikada kənd təsərrüfatının ümumi inkişafı, Ağdam Atçılıq Zavodunun maddi-texniki bazasının möhkəmləndirilməsi, cıdır yarışlarına marağın artması Qarabağ atının inkişafına münbit şərait yaradıb. Zavod yaradıldıqdan sonra cins daxilində ailə və xətlərin formalaşması, bir sıra Ümumittifaq sərgilərində və yarışlarda Qarabağ atları fəal iştirak ediblər. 1956-cı ildə sovet hökuməti tərəfindən İngiltərə kraliçası II Yelizavetaya "Zaman" adlı Qarabağ atının hədiyyə edilməsi bu atların məşhurluğuna bir misaldır. 1980-ci illərdə Moskva auksionu vasitəsilə Qarabağ atlarının bir çox xarici dövlətlərə, o cümlədən Almaniyaya, Hollandiyaya, İsveçrəyə, İtaliyaya, Fransaya və digər ölkələrə satılması cinsin yayılmasında mühüm rol oynayıb.

XX əsrin sonlarında Ermənistanın ölkəmizə hərbi təcavüzü Qarabağda atçılıq təsərrüfatına da ağır zərbə vurub. 1993-cü ildə Ağdam rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsindən sonra Azərbaycanın milli sərvəti, yerli genefondumuzun əsaslarından olan Qarabağ atları köçkünlük həyatı ilə üz-üzə qalıb.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında" 2014-cü il 19 noyabr və "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" 2015-ci il 21 avqust tarixli sərəncamları isə Qarabağ atının genefondunun qorunması, tarixi şöhrətinin özünə qaytarılmasında mühüm rol oynayır.

Təcrübəli təsərrüfatçı Maarif Hüseynov deyir ki, Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, seleksiya-damazlıq işlərinin elmi əsaslarla aparılmasının təmin edilməsi məqsədilə imzalanan bu sərəncamlar Qarabağ atının genefondunun təkrar özünə qaytarılmasında böyük rol oynayır. Uzun müddət atçılıq sahəsində işləmiş mütəxəssis olaraq, bir qarabağlı kimi Qarabağ atlarının şan-şöhrətinin özünə qaytarılması üçün görülən işlərə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm.

Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada yaradılan şəraitlə yaxından tanış olmuşlar. Xam torpaq ərazisində Ağdam atçılıq təsərrüfatı üçün müasir kompleks inşa edilib. Kompleks 34 hektar ərazini əhatə edir. Layihəyə əsasən kompleksdə nəzarət buraxılış binası, inzibati bina, konfrans salonu, tövlələr, atların gəzinti meydançası, açıq və qapalı manejlər, qaçış zolaqları, məşq qurğusu, klinika, doğumxana, süni mayalanma laboratoriyası, nalbənd və sərrac emalatxanası, su, yem, təsərrüfat və gübrə anbarları, avtopark, işçilərin yaşayış yeri və sair inşa edilib.

Ağdam həm də kənd təsərrüfatı rayonudur. Burada əhəmiyyətli əkinçilik ənənəsi mövcuddur. Aqrar sahədə bu il 44 min 655 ton buğda, 7505 ton arpa, 80 min 728 ton tərəvəz, 5923 ton kartof, 15 min 118 ton şəkər çuğunduru istehsal edilib. Bundan başqa, rayon kümçüləri tərəfindən 17,1 ton barama tədarük olunub. Hazırda 3100 hektar sahədə becərilən pambığın yığımı başa çatdırılıb.

Quzanlı qəsəbəsində akademik Xudu Məmmədov adına küçəyə asfalt-beton örtük salınıb. 360 şagird yerlik orta məktəb binasının inşası davam etdirilir. Bu günlərdə İmamqulubəyli kəndində tibb məntəqəsinin tikintisinə başlanılıb.

Mübaliğəsiz demək olar ki, rayonda həyata keçirilən tədbirlər, sosial-iqtisadi inkişafa diqqətin artırılması, uzun illərdən bəri əhalini narahat edən Dördyol-Quzanlı avtomobil yolunun yenidən qurulması, xalqa sarı atılan addımlar, səmimi münasibətin yaradılması insanların fəallığının artmasına, onlarda dərin bir inamın yaranmasına səbəb olub. Yaralı və barıt qoxulu torpağın bu günü və uğurları ağdamlıları sözün əsl mənasında yeni bir mücadiləyə sövq edib.

Cəmiyyətdə gedən prosesləri özündə əks etdirən, cəmiyyətin döyünən nəbzi sayılan vətəndaş müraciətlərini təhlil etmək, onların sayını, mövzularını, bəhs etdikləri problemləri və bunların həlli üçün görülən tədbirləri araşdırmaq, öyrənmək dövlət idarəetməsində mühüm vasitələrdən biridir.

Dövlətimizin başçısı hər bir vətəndaşın Prezidenti olduğunu dəfələrlə qeyd edərək, insanlara qarşı diqqətli olmağı, xalqa xidmət göstərməyi və bununla da Azərbaycan dövlətini daha da gücləndirməyi dövlət qulluqçularının qarşısında bir vəzifə kimi qoyub.

Bütün bu tövsiyə və tapşırıqları öz fəaliyyətində rəhbər tutan rayon icra hakimiyyəti aparatında bu həssas məsələyə yeni yanaşma və obyektivlik ön plana çəkilib. Fəaliyyətə başladığı ilk gündən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov mütəmadi olaraq əhali ilə görüşlər keçirir, onları narahat edən problemlərin həll edilməsinə var qüvvə ilə çalışır.

Qarşıda isə görüləsi bir çox işlər var. Ağdamın keçmiş şöhrətini geri qaytarmaq üçün rayonda bütün qüvvələr səfərbər olunub, torpaqlarımızın işğaldan azad edilməsi üçün hamı Ali Baş Komandanın əmrini gözləyir.

**Salman ALIOĞLU,**
**"Respublika".**








*Qərbi azərbaycanlıların son deportasiyasından 30 il keçir*

# Əsirlikdə qalan Göyçə

**1988-ci ilin noyabr, dekabr aylarında, qarlı-çovğunlu günlərdə aşıqlar yurdu, söz-sənət diyarı Ulu Göyçədən həmvətənlərimizin daha çox yaşadıqları Basarkeçər (Vardenis) rayonundan köçürülməsindən 30 il keçir. Göyçə bizim dərd heykəlimiz, sağalmayan yaramız, susmayan harayımızdı. Yaralar qaysaq bağlasa da ulu vətən sevgisi hər bir kəsin başında səngiməyən, susmayan bir Göyçə havası var.**

1988-ci ildə zaman-zaman türk qanına susayan vəhşi erməni daşnakları "dənizdən-dənizə böyük Ermənistan" xülyasını reallaşdırmaq məqsədilə Göyçə mahalında da xəyanət toru yandırdılar. Ermənipərəst qüvvələr başda satqın Qorbaçov olmaqla Qərbi Azərbaycandan həmvətənlərimizin deportasiyasını dəstəkləyir, göyçəlilər məcburiyyət qarşısında qalıb ata-baba torpaqlarını tərk edir, qəm və köç karvanları uçurumlu dağ yolları ilə Azərbaycana doğru üz tuturdu. Xalq köməksiz, arxasız idi. Ermənilər başda Viktor Hambartsumyan, Zori Balayan, Silva Kaputikyan, Sero Xanzadyan və digər millətçi quldurların dəstəyi ilə Göyçə mahalında cinayətlər törədir, azərbaycanlılara qarşı terror hadisələri həyata keçirir, onların mal-dövlətini talayır, dinc əhalidən qənimətlər ələ keçirir, ev-eşiklərinə od vurub yandırırdılar.

1988-ci ilin sonlarına yaxın Ermənistan televiziyasında azərbaycanlılara qarşı qərəzli verilişlər hazırlanır, filmlər nümayiş etdirilir ki, guya türklər həmişə ermənilərə arxadan zərbə endirmiş, onları qırıb batırmışlar. Əslində bu cür uydurma təbliğatlar yalan və böhtan idi. Məqsəd erməni xalqında azərbaycanlılara qarşı kin-küdurət aşılamaq idi.

30 il öncə bir tərəfi Kəlbəcərə, bir tərəfi Gədəbəyə söykənən Göyçə mahalında ermənilər tərəfindən nələr törədilmədi?

Basarkeçər rayonunun 34 kəndində yaşayanların əksəriyyəti azərbaycanlılar idi. Burada 35 mindən çox azərbaycanlı yaşayırdı. 1988-ci ilin son aylarında ermənilər deportasiya siyasətini başa çatdırmaq üçün bir çox xəyanətlərə əl atdılar. Hətta Göyçə mahalına əhalinin gözünü qorxutmaq üçün müxtəlif bölgələrdən saqqallı, quldur erməni dəstələri göndərildi, onların əksəriyyəti içki aludəsi olmaqla, narkoman idi. Açıq-aşkar əllərində soyuq silah kəndlərdə istədikləri kimi hərəkət edir, qarşıya çıxan azərbaycanlılara əmr edirdilər ki, Ermənistanın ərazisini tez tərk etsinlər. 1988-ci ilin noyabr və dekabr aylarında rayon mərkəzi ilə azərbaycanlılar yaşayan kəndlərin əlaqəsi tamamilə kəsildi. Rayon rəhbərləri tərəfindən kəndlərə ərzaq məhsulları gətirilməsi dayandırıldı, avtobuslar işləmədi, hətta rabitə xidməti də sıradan çıxarıldı. Dəhşətlisi odur ki, yanacaqdoldurma məntəqələrində azərbaycanlılara məxsus olan maşınlara benzin satışı qadağan olundu.

Əlbəttə, bu göstərişlər İrəvandan verilir və yerlərdə qəddarlıqla icra olunurdu. Belə bir məqamda soydaşlarımızın aqibəti çətin idi, çox çətin! Ata-baba yurdlarını məcburən tərk edənlərin çoxu yanacaq olmaması üzündən şəxsi maşınlarını, öz varidatlarını orada qoymaq məcburiyyətində qaldılar.

Neçə-neçə evdə mal-qara, qoyun, ev quşları, ərzaq məhsulları qaldı. Hamı köç maşınlarında cüzi ev əşyaları götürməli oldu. Çoxlarının əmanət kassalarında min bir zəhmətlə qazandıqları pullar qaldı. Erməni xəyanətini sadalamaqla qurtarmaq olmaz.

Xalq erməni xəyanətindən yaxa qurtarmaq üçün ümid yeri axtarır, çoxları inanmırdı ki, sovetlər ölkəsində XX əsrin sonunda ermənilər tərəfindən belə bir qəddarlıq, analoqu olmayan dəhşətli cinayətlər törədilsin, İrəvan şəhərinin və digər bölgələrin azərbaycanlı əhalisinə amansız divan tutulsun. Bu dar məqamda Göyçənin bir çox kəndlərindən yaşlı insanlar çox əzab-əziyyətlə Moskvaya üz tutdu, ancaq orada da ermənilər onların yolunu qəddarlıqla kəsdi, imkan vermədi ki, Qərbi Azərbaycandan paytaxta gəlmiş insanların yüksək postlarda əyləşmiş ermənipərəst vəzifəli şəxslərlə görüşü baş tutsun. Həmin dövrdə rəhbər vəzifədə çalışan ermənilər yağlı tikələrini Qorbaçovla bölür, SSRİ rəhbərliyinə isə qiymətli brilyant, qızıl hədiyyələri göndərilirdi.

Qeyd etmək lazımdır ki, 1988-ci ilin dekabrında Basarkeçərdə "Vardenis" rayon qəzetinin fəaliyyəti birdən-birə dayandırıldı. Baş redaktor Yunis Abdullayevə rayon partiya komitəsinin birinci katibi Razmik Yenqoyan tərəfindən tövsiyə olundu ki, bu gündən qəzet bir daha işıq üzü görməməlidir! Bir redaktor kimi möhürünü təhvil ver və günü sabahdan rayonu tərk et, köç karvanlarına qoşul.

Eyni vaxtda bir çox azərbaycanlı milis işçisinə işə gəlməmələri haqqında əmr verildi. Rayon İcraiyyə Komitəsinin sədri Müseyib İmaməliyev də işdən qovuldu. Həmçinin göyçəlilərə qarşı digər təxribatlar da törədildi. Şübhəsiz ki, Qərbi Azərbaycanda, o cümlədən Göyçədə törədilən işgəncə və terror hadisələrindən Moskva, sütunları çürüməkdə olan Sovetlər İttifaqının faşizm donuna bələnmiş rəhbərləri xəbərsiz deyildi.

İş o yerə çatdı ki, bir payız günündə Basarkeçərin Azərbaycan əhalisi bir neçə saat ərzində Nərimanlı kəndinin girəcəyindəki "Göykörpü" deyilən bir yerdə cəm oldu. Zod kəndindən buraya axışan çoxsaylı gənclərin əksəriyyəti bel-külünglə gəlmişdi, armaturların isə sayı-hesabı yox idi. Məqsəd isə erməni xəyanətindən qurtulmaq, son məqamda daşnakların dərsini vermək idi. Bu insan axını rayon mərkəzində və digər kəndlərdə yaşayan erməniləri qorxuya saldı. Basarkeçər-Zod marşrutunda qorxudan bir erməni maşını belə görünmədi. Yüzlərlə qəzəbli insan Basarkeçərə doğru hərəkət etdi. Lakin çox keçmədən yüksək postda olan erməni rəhbərləri azərbaycanlıların qarşısına çıxdı. Xalqı dilə tutub, onlara bildirdilər ki, belə getməz, hər şey düzələcək və əvvəlki "dostluğumuz" bərpa olunacaq. Əlbəttə, bu, qəzəbli kütləni aldatmaqdan başqa özgə şey deyildi.

Əgər 34 kəndin əhalisi rayon mərkəzinə getməli olsaydı, şübhəsiz ki, ermənilər ağır itkilər verərək, bəlkə də qorxudan özlərini Göyçə (Sevan) gölünə atardılar.

Göyçəlilərin ata-baba torpaqlarından qovulmasından 30 il keçir. Ermənilər tərəfindən törədilən bu vəhşiliklərə ermənipərəst qüvvələr göz yumur, qaçqınların acı taleyi, onların əzəli torpaqlarına, qədim Oğuz ellərinə dönmələrinə dünya birliyində laqeyd münasibət göstərilir. Yəqin ki, gec-tez haqq-ədalət öz yerini tapacaq, göyçəlilər əzəli torpaqlarına dönəcək, xalqımız erməni taunundan xilas olacaqdır.

Fikrimizi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin belə bir ifadəsi ilə tamamlamaq yerinə düşər: **"Ermənistan tarixi Azərbaycan torpaqları üzərində qurulmuşdur. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır."**

**Qədir ASLAN,**
**"Respublika".**

*Oqtay RZA*

## Vətən

Gözəllik diyarı, hünər məskəni!
Necə vurulmasın hüsnünə insan?
Təbiət füsunkar yaradıb səni,
Tarix qocalsa da, özün cavansan.

Bağ, çəmən bəzəyir geniş sinəni,
Nəhəng çinarların, qönçə gülün var;
Təbiət füsunkar yaradıb səni,
Şəlalən, dənizin, çayın, gölün var.

Coşan ilhamındır baharda sellər,
Zümzümən — payızın həzin yağışı;
Muğana quş kimi qonar fəsillər,
Savalan həsrətlə yaşadır qışı.

Laçında çağlayır iki cür bulaq:
Biri barmağımı dondurar mənim,
Biri dodağımı yandırar mənim...
Maralın baxdığı güzgüdür bulaq.

Sən ərşə qaldırdın min qərinəni,
Yolların çən-duman olmasın, Vətən!
Təbiət füsunkar yaradıb səni,
Bircə çiçəyin də solmasın Vətən!



# Şirvan
# Yaşıllığa bürünmüş abad şəhər

**Şirvan şəhərinə yolu düşənləri ilk əvvəl hər iki tərəfi sıx yaşıllıqla örtülmüş geniş prospekt qarşılayır. Daha sonra yeni tikililər, bir az içərilərdə abad məhəllələr göz oxşayıb, adamda razılıq hissi yaradır. Bəli, bu gün Şirvan şəhərini haqlı olaraq "Yaşıllığa bürünmüş abad şəhər" adlandırırlar. Şəhər icra hakimiyyəti ölkənin Aran zonasında yerləşən bölgədə iqtisadi durumun yaxşılaşdırılması, dotasiyalardan asılılığın minimuma endirilməsi məqsədi ilə daxili imkanlardan səmərəli istifadə edir. Sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, keçirilən tenderlərdə şəffaflığın təmin olunması, kiçik və orta sahibkarlığın inkişafı, əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şərait yaradılır. Yerli infrastruktur layihələrinin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi daima diqqət mərkəzindədir.**

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş Dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikada uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar ölkədə iqtisadiyyatın dinamik inkişafına və əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına təkan vermişdir. Ölkəmizin iqtisadi inkişafı artan templə getmiş, iqtisadi və müdafiə gücümüz daha da möhkəmləndirilmişdir. Ölkə iqtisadiyyatının davamlı inkişafı Şirvan şəhərinin də sosial-iqtisadi inkişafına müsbət təsir göstərmiş və bu sahədə mühüm nəticələr əldə edilmişdir.

Şəhərdə əhalinin normal həyatı və istirahəti naminə hər cür şərait vardır. Sakinlərin elektrik enerjisi və təbii qazla təchiz olunması, şəhərin içməli su və kanalizasiya sisteminin yenidən qurulması və digər kommunal xidmətlərin həcminin və keyfiyyətinin yüksəldilməsinə diqqət artırılmışdır.

Əhalinin təbii qaza olan tələbatını ödəmək məqsədilə şəhərin qaz şəbəkəsində təmir və yenidənqurma işləri aparılmış, istismara yararsız qaz kəmərləri yenisi ilə əvəz olunmuşdur. Dövlət Proqramına uyğun olaraq əhalinin qaz təchizatının yaxşılaşdırılması məqsədilə şəhərin "Çılpaqlı" yaşayış massivi Fizuli küçəsində müxtəlif diametrli 160 paqonmetr, H.Z.Tağıyev küçəsində müxtəlif diametrli 117 metr əlaqələndirici qaz xətti çəkilmiş və ŞQTM-500 tipli qaz tənzimləyici şkaf quraşdırılmışdır. Naxçıvan küçəsində Hacıqabul QPS-dən şəhərə gələn 315 millimetrlik yeraltı orta təzyiqli polietilen xəttin üzərində RDUK-200 tipli qaz tənzimləyici qurğu, bir ədəd ŞQTM-200 və bir ədəd ŞQTM-300 tipli qaz tənzimləyici şkaf quraşdırılmışdır. "Kənd evləri" N.Tusi küçəsində, Nizami küçəsində, Xəqani küçəsində, M.Ə.Rəsulzadə küçəsində yer altında qalaraq korroziyaya uğramış qaz kəmərləri yeni yerüstü xətlərlə əvəz olunmuşdur. C.Cabbarlı küçəsində korroziyaya uğramış xəttin əvəz olunması məqsədilə yeni paylayıcı xətt quraşdırımışdır. Qaz təchizatının yaxşılaşdırılması məqsədi ilə digər tədbirlər Kənd evləri, M.Əsədov, N.Nərimanov, M.Mirzəyev küçələrində də həyata keçirilmiş və keçirilməkdədir.

Əhalini dayanaqlı elektrik enerjisi ilə təmin etmək məqsədilə Dövlət Proqramına uyğun olaraq Şirvan şəhər ərazisində elektrik verilişi xətlərinin çəkilməsində 8820 metr müxtəlif diametrli kabel və naqildən istifadə olunmuş, 142 ədəd dəmir dayaq quraşdırılmış, istismara yararsız 1 ədəd rubilnik yeni 400 A-lik rubilniklə əvəz edilmişdir. Şəhərin müxtəlif ərazilərində 55 ədəd yarımstansiya cari təmir olunmuş, 2 ədəd kompleks transformator məntəqəsi quraşdırılaraq istifadəyə verilmişdir. Bu müddət ərzində 250 ədəd "Smart kart" tipli sayğac quraşdırılmışdır.



Dövlət Proqramının icrası ilə bağlı şəhərin su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması istiqamətində işlərə başlanılmışdır. Belə ki, hazırda şəhər üzrə 24600 metr müxtəlif diametrli mərkəzi və məhəllədaxili yeni su xətləri çəkilmişdir. Görülən işlər nəticəsində 45 ədəd çoxmənzilli yaşayış binalarının su xətləri yenilənərək xətlər üzərinə su sayğacları quraşdırılaraq istifadəyə verilmişdir. Hazırda "Azərsu" ASC tərəfindən şəhərin su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir.

Şəhər əhalisinin rabitə və internet xidmətinə olan tələbatın ödənilməsi məqsədilə Dövlət Proqramına uyğun "Kənd" evləri yeni yaşayış massivində sakinlərin genişzolaqlı internet xidmətinə olan tələbatını nəzərə alaraq 1040 nömrəlik EATS və 1 ədəd 128 portluq "Huawei" markalı DSLAM istifadəyə verilmişdir. Mərkəzi EATS-də montaj tutumu 128 nömrə artırılmışdır.

Ümumtəhsil məktəblərində şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə görülən işlər gücləndirilmiş, əhalinin sağlamlığının qorunması məqsədilə sakinlərin tibbi müayinədən keçirilməsinə ciddi nəzarət olunmuş, şəhid, aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan ailələr daim diqqətdə saxlanılmış, idmanın kütləviliyinin artırılması üçün müvafiq addımlar atılmışdır. Ümumilikdə şəhərdə ictimani-siyasi vəziyyət və dini durum sabit olmuşdur.

Təhsilin keyfiyyətinin yüksəldilməsi, istedadlı şagirdlərin yetişdirilməsi diqqət mərkəzində saxlanılmış, bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilmişdir. Belə ki, Şirvan Təhsil Şöbəsi təlimin keyfiyyətinin, şagirdlərin davamiyyətinin, habelə tədris prosesində səmərəliliyin, müəllimlərin bilik, bacarıq və vərdişlərinin artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirmişdir. "İTE-Təhsildə İnnovativ Texnologiyalar" Əlavə Təhsil Mərkəzinin təşkilatçılığı ilə 45 müəllim və 30 nəfər inzibati heyət üçün təlim prosesində İKT-nin tətbiqinə dair təlim kursları təşkil olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsi keçirilmişdir. Müsabiqədə 15 məktəbdən 15 nəfər IX-XI sinif şagirdləri iştirak etmişdir. Onlardan şəhər 13 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Şəkərova Əsmər Elburus qızı müsabiqənin şəhər qalibi elan edilmişdir.

Bu il şəhər ümumtəhsil məktəblərində buraxılış imtahanları aparılmışdır. Buraxılış imtahanlarını IX siniflər üzrə 832 nəfər, XI siniflər üzrə 718 nəfər müvəffəqiyyətlə vermişlər. Dərs ili ərzində qazandıqları nailiyyətlərə görə şəhər 18 nömrəli məktəb-liseyin 11-ci sinif şagirdi Zeynallı Ağaəli qızıl, 13 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Alışov Əzizalı isə gümüş medalla təltif edilmişlər.

Dövlət İmtahan Mərkəzinin rəsmi hesabatına görə, əvvəlki illərin məzunları ilə birlikdə 2018-ci ildə 735 nəfər sənəd vermiş, onlardan 376 nəfər (51,16%) qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 1 nömrəli məktəb-liseyin məzunu Yaqubov Tahir (695 bal) və 18 nömrəli məktəb-liseyin məzunu Abbaslı Ülvi (690 bal) Prezident təqaüdünə layiq görülmüşdür.

"Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində şəhər ümumtəhsil məktəblərində təhsil alan 40 nəfər IX-XI sinif şagirdləri 16-19 mart 2018-ci il tarixlərdə respublikamızın şimal bölgəsinə səfər etmiş, tarixi yerlərlə yaxından tanış olmuşlar.

2017/2018-ci tədris ilində əldə etdiyi uğurlara görə şəhər 21 nömrəli tam orta məktəbin direktoru Səadət Əlisahib qızı Quliyeva Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Əməkdar müəllim", Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Şirvan şəhər şöbəsinin sədri Niyazi Nəcəfov isə "Tərəqqi" medalına layiq görülmüşdür. Cənab Prezidentin sərəncamına əsasən şəhər 16 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Səmədova Aygün "Tərəqqi" medalı ilə təltif edilmiş, şəhər 13 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Hacıyeva Əsmər isə Təhsil Nazirliyinin fəxri fərmanına layiq görülmüşdür.

Şəhərdə Dövlət Gənclər siyasətini uğurla həyata keçirmək məqsədi ilə bu sahəyə diqqət artırılmış, gənclərin iştirakı ilə müxtəlif səpgili tədbirlər keçirilmiş, gənclər təşkilatlarının şəhərin ictimai-siyasi həyatında fəal iştirakına geniş şərait yaradılmışdır.

Şəhər səhiyyə müəssisələrində əhaliyə tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması sahəsində bir sıra işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığının icrasını təmin etmək məqsədilə əhalinin ümumi profilaktik müayinələrə cəlb olunması nəticəsində Şəhər Mərkəzi Xəstəxanasında ötən aylar ərzində 18 yaşından yuxarı 61811 vətəndaş müayinə olunmuş, onlardan 53730 nəfəri sağlam bilinmiş, 7400 nəfər ambulator, 580 nəfər stasionar müalicəyə cəlb olunmuş, 101 nəfər Bakı şəhər xəstəxanalarına göndərilmişdir.

Əhaliyə əmək pensiyalarının, sosial müavinətlərin, aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımların vaxtında verilməsinə müntəzəm nəzarət edilmiş, pensiya, müavinətlərin və sosial müavinətlərin ödənişlərində heç bir kəsir yaranmamışdır.

2018-ci ilin 01 oktyabr vəziyyətinə şəhərdə əmək pensiyaçılarının ümumi sayı 10131 nəfər olmuşdur ki, onlardan 6437 nəfəri yaşa, 2427 nəfəri əlilliyə, 1267 nəfəri ailə başçısının itirilməsinə görə pensiya alanlardır.

"Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 23.02.2018-ci il tarixli Sərəncamı ilə 2018-ci ilin martın 1-dən ölkədə bütün növ sosial müavinətlərin aylıq məbləği 10 faiz artırılmışdır.

İqtisadiyyatda müşahidə edilən sabit artım tempi ölkənin sosialyönümlü inkişafını təmin etmiş, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və məşğulluğun artırılması üçün əlverişli şərait yaratmışdır.

Belə ki, Şirvan Şəhər Məşğulluq Mərkəzi işsiz və işaxtaran vətəndaşların münasib iş yerləri ilə təmin etmək məqsədilə 2018-ci ilin ötən ayları ərzində Mərkəzə 976 nəfər işaxtaran kimi müraciət etmişdir. Mərkəzdə ümumi qeydiyyatda olan işaxtaran vətəndaşlardan 927 nəfəri işlə təmin olunmuşdur ki, onlardan da 510 nəfəri yeni yaradılmış iş yerləri olmuşdur. Hesabat dövründə 13 nəfər işaxtaran vətəndaşa işsizlikdən sığorta ödənişi təyin edilmişdir. Mərkəz tərəfindən şəhər ərazisində fəaliyyət göstərən 5 idarə və müəssisədən kvota ilə ayrılmış 7 boş (vakant) iş yerlərinə sosial müdafiəyə xüsusi ehtiyacı olan 2 nəfər məcburi köçkün göndərilmişdir.

Hesabat dövrü ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən "Özünəməşğulluq proqramı" Şirvan şəhərində də uğurla davam etdirilir. Belə ki, Mərkəzə müraciət etmiş işsiz və işaxtaran vətəndaşlardan 60 nəfəri öz ailə bizneslərini yaratmaları üçün Proqrama cəlb edilmişdir. Təlimdə iştirak edən vətəndaşlardan 56 nəfəri öz biznes planlarını müvəffəqiyyətlə müdafiə etmişdir ki, onların da aktivləri yaxın günlərdə veriləcəkdir. Təlimə cəlb olunan vətəndaşlardan daha çox üstünlük sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşlar təşkil etmişdir.



Əvvəlki illərdə olduğu kimi, 2018-ci ilin 9 ayı ərzində şəhər ərazisində tikinti-quraşdırma və abadlıq işləri davam etdirilmişdir. Şirvan şəhərində qarşıya qoyulmuş məsələlərin həlli istiqamətində uğurlu addımlar atılmış, abadlıq və yenidənqurma işlərinin həcmi genişləndirilmişdir. Belə ki, H.Əliyev 1B saylı ictimai yaşayış binasının fasadında, N.Nərimanov 7 və 9 saylı ictimai yaşayış binalarının fasad və bloklarında təmir, N.Nərimanov 7 saylı binanın qarşısındakı nümunəvi məhəllədə abadlıq-tikinti işləri başa çatdırılmışdır. Şəhərdə abadlıq-quruculuq işləri artıq gündəlik iş rejiminə çevrilmişdir. F.Eynullayev, N.Nərimanov, L.İbrahimov və başqa küçələrdəki yaşayış binalarında müxtəlif istiqamətli təmir işləri həyata keçirilmişdir. N.Nərimanov 11 və 13 saylı ictimai yaşayış binalarının qarşısında "Mərasim yeri"nin tikintisi davam etdirilir.

Dövlət Proqramına uyğun Şirvan şəhər "Kürkörpü" yaşayış massivində 50 şagird yerlik yeni modul tipli məktəb tikilib istifadəyə verilmişdir.

Şəhər 5 nömrəli ümumi orta məktəbin binası qəzalı vəziyyətə düşdüyü üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 yanvar 2018-ci il tarixli 3593 nömrəli Sərəncamına əsasən dövlət əsaslı vəsait qoyuluşu hesabına 432 şagird yerlik ikimərtəbəli yeni binanın tikintisinə başlanmışdır. 5 saylı Ərazi Vergilər İdarəsi yeni inzibati binasının tikintisi davam etdirilir.

2010-cu ildə Kür və Araz çaylarında suyun səviyyəsinin qalxması nəticəsində baş vermiş təbii fəlakət zamanı şəhər ərazisində fərdi yaşayış evlərinə dəymiş ziyanla bağlı Fövqəladə Hallar Nazirliyi tərəfindən 7 fərdi evin tikintisi tamamlanmaq üzrədir.

Yeni Azərbaycan Partiyasının Şirvan Şəhər Təşkilatı üçün şəhərin Naxçıvan küçəsində yeni inzibati binanın tikintisinə başlanılmışdır. Şəhərin küçə və meydanlarında genişmiqyaslı yaşıllaşdırma işləri davam etdirilmişdir. Yaşıllıq sahələrinin artırılması, gül-çiçək kollarının, ağacların əkilməsi, suvarılması, aqrotexniki qaydada qulluq göstərilməsi kimi çox mühüm işlər görülmüşdür.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrası ilə bağlı Şirvan şəhərində nəzərdə tutulan tədbirlərin ardıcıl olaraq həyata keçirilməsi təmin olunur.

Şəhərin sosial-iqtisadi inkişafının təmin edilməsinə yönəldilən bütün tədbirlər davam etdirilməkdədir.

**Tofiq HÜSEYN,**
**"Respublika".**







# POLİQRAFİYAMIZIN FƏDAİSİ, MƏTBUATIMIZIN CƏFAKEŞİ



**Lənkəran ilin bütün fəsillərində gözəldir. Bu yerlərdə payızın özgə hüsnü olur. Təbiət yaşıl, sarı, al qırmızı don geyinir, min bir rəngə çalır. Mehman Fərzullayev də qızıl payızın Lənkəranın Kərgəlan kəndinə xüsusi gözəllik gətirdiyi, əlvan naxışlarla bəzədiyi bir gündə dünyaya göz açıb. Halal, zəhmətkeş kəndli ailəsində böyüyüb. Atası Eynulla kişi ixtisasca aqronom olub, təsərrüfat işlərində çalışıb. Anası Fatma sovxozda fəhlə işləyib. Ailədə beş qız, dörd oğlan uşağı böyüdüb ərsəyə çatdırıblar.**

Mehman müəllim ailənin ilkidir. Uşaq yaşlarından əməyə, zəhmətə bağlanıb. 1966-cı ildə orta məktəbi bitirəndən sonra sovxozda fəhlə işləyib. İşgüzar və qabaqcıl fəhlə, komsomol fəalı kimi tanınıb. Sovxoz komsomol təşkilatının katibi seçilib. Azərbaycan komsomolunun qurultayında iştirak edib.

Mehman müəllim zəngin, şərəfli ömür yoluna malikdir. Hələ orta məktəb illərində "Lenincі" qəzeti ilə əməkdaşlıq edib. İlk yazıları "Leninçi" və "Azərbaycan gəncləri" qəzetlərində çap olunub. İlk zəhmət haqqı da redaksiyadan aldığı 17 manat qonorar olub.

Həqiqi hərbi xidmətini Gürcüstanın Batumi şəhərində keçirib. Hərbi hissədə ona komsomol katibi və diviziyanın qəzetində işləmək təklif olunub. Bütün varlığı ilə mətbuata bağlı olan Mehman Fərzullayev qəzetdə işləməyə üstünlük verib. Zaqafqaziya Hərbi Dairəsinin "Leninskaya znamya" qəzetində də müntəzəm çıxışlar edib. Burada ordu generalı Sokolovla (sonralar o SSRİ müdafiə naziri olub) görüşüb.

O vaxtlar qəzetin yazıları əllə yığılırdı. Mehman qısa vaxtda kirillə yanaşı, latın, ərəb qrafikası ilə yığmağı öyrənib. Bir dəfə vacib tədbirlə əlaqədar qəzeti təcili şəkildə rəngli çap etmək lazım olub. Mətbəənin müdiri deyib ki, bir iş gününə bunu etmək olmaz. Hərbi hissə komandiri Mehman Fərzullayevin səriştəsinə, bacarığına bələd olduğundan bu iş ona tapşırır. Mehman gecə səhərədək mətbəədə işləyib qəzeti yüksək poliqrafik tələblərə uyğun çap edib. Qəzetin bu nömrəsi tərtibatı, maraqlı, oxunaqlı yazıları ilə diqqəti cəlb edib, hərbi hissədə əldən-ələ gəzib. Zaqafqaziya hərbi dairəsinin rəhbərliyi kollektivin işini bəyənib və gənc əsgər Mehman Fərzullayevi mətbəənin müdiri vəzifəsinə tövsiyə edib. Bu unudulmaz hadisə onun gələcək həyat yolunu müəyyənləşdirib.

Ordudan tərxis olunduqdan sonra Bakı Dövlət Universitetinin mətbəəsində fəhlə kimi işə başlayıb. Sonra çapçı işləyib. Çalışqanlığı, işgüzarlığı ilə kollektivdə seçilib. Jurnalistikaya sonsuz həvəs göstərdiyindən mətbuat haqqında buraxılan kitabların çapına korrektor kimi təmənnasız kömək edib.

1971-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin qiyabi şöbəsinə qəbul olunub. Sumqayıt şəhərindəki kimya birliyində diktor-müxbir vəzifəsində işə düzəlib. O illərdə respublika qəzetlərində müntəzəm yazıları çap olunub, radio və televiziya üçün xəbərlər, reportajlar hazırlayıb.

1976-cı ildə görkəmli poliqrafçı alim Şəddat Cəfərovun qayğısı ilə Bakı Yeni Kitab Mətbəəsində baş usta vəzifəsinə təyin olunub. İşlədiyi sex planları kəsirlə yerinə yetirirdi. Gənc poliqrafçının gərgin səyləri sayəsində sexin işində dönüş yarandı. Proqnoz tapşırıqlar 107 faiz icra olundu. Müəssisə keçici qırmızı bayrağa layiq görüldü. Mehman müəllim isə istehsalat şöbəsinin rəisi vəzifəsinə irəli çəkildi.

İndi o illər şirin xatirə kimi yaddaşına həkk olunub. Mehman müəllim bu barədə deyir:

- O vaxt alimlərin əksər kitabları bizim mətbəədə çap olunurdu. Görkəmli təbiətşünas alim akademik Həsən Əliyevin, dünyaşöhrətli uroloq, akademik Mirməmməd Cavadzadənin, professor Zülfüqar Verdiyevin və digər tanınmış alimlərin bir neçə kitabı işlədiyim mətbəədə işıq üzü görmüşdür. Yaxşı xatırlayıram. Bakıda urolоqların beynəlxalq konfransı keçiriləcəkdir. Vaxta cəmi iki ay qalırdı. Konfransla bağlı kitablar, broşürlər təcili çap olunmalı idi. Heç kəs məsuliyyəti öz üzərinə götürmək istəmirdi. Mən söz verdim ki, bu işi bacararam. Mətbəənin yığım və çap sexlərində əsasən gənc qızlar, qadınlar işləyirdi. Onların valideynləri ilə görüşüb işdən sonra sexdə qalıb işləmələri üçün razılıq aldım. İş vaxtı gecə saat 23-ə kimi uzanırdı. Gərgin rejimdə işləyərək akademik M.Cavadzadənin kitabını və konfrans materiallarını 40 günə çap etdik. Başqa bir misal deyim. Professor Zülfüqar Verdiyev Hindistana beynəlxalq konfransa dəvət almışdı. Onun kitabını da təcili qaydada çap edib təhvil verdik. "Energetika" dərsliyini qısa vaxtda buraxmaq heç də asan deyildi. Çünki 40 çap vərəqi həcmində olan kitabda çoxlu düsturlar, üstlü və loqarifmik tənliklər var idi. İkinövbəli iş sisteminə keçməklə kitabı vaxtından əvvəl buraxdıq. Kitabın müəllifi onu Türkiyədə keçirilən elmi simpoziuma apardı.

Tanınmış poliqrafçının həyatında bu cür yaddaqalan, unudulmaz hadisələr çox olub. "İşıq" nəşriyyatında istehsalat şöbəsinin rəisi işləyərkən görkəmli Nərimanovşünas alim, professor Teymur Əhmədov N.Nərimanov haqqında yazdığı monoqrafiyanı nəşriyyata təqdim edib. Mehman müəllimə tapşırıb ki, imkan daxilində çapını sürətləndirsin. Mehman müəllimin və kollektivin səyləri sayəsində kitab nəzərdə tutulduğundan da tez işıq üzü görüb. Ədəbiyyatşünas alim Əkrəm Cəfərin 40 çap vərəqi həcmində əruz vəzni barədə yazdığı kitab 7 il idi ki, mətbəədə növbə gözləyirdi. Kitab kiril, latın və ərəb qrafikası ilə çap olunmalı idi. Müəllif çox narahat idi. Hətta Mehman müəllimə demişdi ki, əgər mən ölsəm bu kitab çap olunmaz. Daim axtarışda, yenilik sorağında olan gənc poliqrafçı ərəb qrafikası ilə yığıcı tapıb kitabı 6 aya çap edib.

O illərdə "İşıq" nəşriyyatında rəngli kitabların, bukletlərin, not ədəbiyyatının çapında çoxlu çətinliklər mövcud idi. Bu cür kitablar Moskva şəhərinin mətbəələrində buraxılırdı. Mehman müəllim "Azərbaycan miniatürləri" kitabının Moskvada Azərbaycan, rus və ərəb dillərində on min tirajla çap olunmasına razılıq aldı. Kitab Moskvada keçirilən sərgidə gümüş medal qazandı. Mərkəzdən "İşıq" nəşriyyatına 38 min manat mükafat ayrıldı.

"Naxçıvan", "Dağlıq Qarabağ", "Sumqayıt" və digər fotoalbomların, uzun illər çapını gözləyən 20 adda not ədəbiyyatının Moskvada yığılıb "İşıq" nəşriyyatında çapına Mehman müəllim rəhbərlik edib. Mehman Fərzullayev öz şəxsi əlaqələrindən istifadə edərək Bakının qədim tarixini, arxitekturasını, görməli yerlərini əks etdirən kitabçaları 100 min tirajla Moskvada çap etdirib. Nəşriyyatda həmçinin xalq rəssamlarından Mikayıl Abdullayevin, Hüseyn Əliyevin, Toğrul Nərimanbəyovun, Kamil Nəcəfzadənin, İbrahim Zeynalovun, Mürsəl Nəcəfovun əsərləri rəngli çap olunub.

1983-cü ildə "Kommunist" (indiki "Azərbaycan") nəşriyyatında işə başladı. İlk dəfə olaraq sinkoqrafiya sexində şilda istehsalını yaratdı. Əvvəllər bu işi Moskvada, Yaponiyada görüb hazır məhsulu Bakıya göndərirdilər. Təcrübəli poliqrafçı işlənmiş çap lövhələrindən şilda istehsalında xammal kimi istifadə edərək daha bir yeniliyə imza atdı. Nəticədə 20 qəpiklik metal lövhə 4 manat qazanc gətirir, nəşriyyat bu hesaba 20 min manat vəsait qazanırdı. Mehman müəllim nəşriyyatda ilk dəfə operativ çap istehsalını təşkil etdi. Nəşriyyatın istehsalat-texniki şöbəsində böyük mühəndis, sinkoqrafiya sexinin rəisi işlədi.

1986-cı ildə "Kommunist" qəzetinin baş redaktoru, görkəmli dövlət xadimi Rəşid Mahmudovun tövsiyəsilə "Kommunist" qəzetinə buraxıcı vəzifəsinə təyin olundu. Qəzetin poliqrafiyanın yeni tələblərinə uyğun çapına öz töhfələrini verdi. "Səhər" qəzetinin 1990-cı ilin Qanlı Yanvar faciəsinə həsr olunmuş 2 milyonluq tirajının buraxıcısı da Mehman müəllim olmuşdur.

Poliqrafiya sahəsində yüksək təşkilatçılıq qabiliyyətini, bacarığını və zəngin təcrübəsini nəzərə alaraq Respublika Dövlət Mətbuat, Nəşriyyat və Kitab Ticarəti Komitəsinin təchizat və satış idarəsinə rəis müavini təyin olundu.

1990-cı ildə Moskvadan Azərbaycanın səsini dünyaya yayan "Panorama Azerbaydjana" qəzetinin çapında çətinlik yarananda Mehman müəllim Moskva şəhərinə uzunmüddətli ezamiyyətə göndərildi. Azərbaycanın daimi nümayəndəliyində məsul katib vəzifəsinə təyin olundu. Xalqımıza düşmən kəsilən ermənilərin təzyiqi nəticəsində 6 ay idi ki, qəzetin çapı dayanmışdı. Mehman müəllim "Pravda" nəşriyyatında çalışan dostlarının köməyilə qəzeti 30 min tirajla rəngli buraxaraq Moskvadakı xarici ölkə səfirliklərinə, ittifaq respublikalarına göndərdi.

1991-ci ilin fevralında qəzetin baş redaktor müavini təyin olundu. Aşqabad, Daşkənd, Alma-Ata və Krasnoyarsk şəhərlərində qəzetin fəaliyyəti, Azərbaycan həqiqətləri barədə həmin şəhərlərin televiziya kanallarında, mərkəzi qəzetlərində çıxışları böyük maraqla qarşılandı. Moskva, Sankt-Peterburq, Kazan, Nijni-Novqorod, Kiyev, Minsk və digər şəhərlərdə Azərbaycan diasporunun təşkilatlanmasında, eləcə də Azərbaycan həqiqətlərinin keçmiş SSRİ məkanında, habelə Norveç, Kanada, Amerika və İranda yayılmasında yaxından iştirak etmişdir. Xocalı faciəsi haqqında Seyidağa Mövsümovun çəkdiyi sənədli filmin Moskvada, Kanadada, Amerikada, Norveçdə nümayişini təşkil etmişdir.

Sonra yenidən Vətənə qayıtdı. Müdafiə Nazirliyində hərbi-texniki ədəbiyyatlar şöbəsinin rəisi - baş redaktor vəzifəsinə təyin olundu. Ölkəmizdə ilk dəfə "Hərbi nəşriyyat"ın yaradılması onun adı ilə bağlıdır. Burada çalışdığı dövrdə 500-dən artıq hərbi-texniki, hərbi-vətənpərvərlik mövzusunda olan kitabların, xüsusi ədəbiyyatların, müxtəlif nizamnamələrin çapını təşkil etdi. "Hərbi bilik" jurnalının və "Azərbaycan ordusu" qəzetinin nəşrinə yardımçı oldu.

2000-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində "İslam" nəşriyyatını yaratdı. "Vətən" nəşriyyatında, Ədliyyə Nazirliyinin "Ədliyyə Nəşriyyat Evi" MMC-də çalışdı. "Qanunçuluq" jurnalının böyük redaktoru kimi səmərəli fəaliyyətilə iz qoydu.

2010-cu ildən təqaüddədir. Fərdi yaradıcılıqla məşğul olur. "Azərbaycan" qəzetinin redaktorlarından biri, repressiya qurbanı Xəlil İbrahim, görkəmli dövlət xadimlərindən İmam Mustafayev, Kamran Hüseynov, Rəşid Mahmudov, Kamran Rəhimov, Sadıq Murtuzayev, görkəmli hüquqşünas Abdulla İbrahimov, tanınmış jurnalist Kazım Ələkbərov, respublikanın baş nefroloqu Mehman Ağayev haqqında buraxılan kitabların, "İlisu" ensiklopedik nəşrin tərtibçisi, redaktoru və ön sözün müəllifi olmuşdur.

"XX əsrin 100 görkəmli azərbaycanlısı" kitabını rus dilindən ana dilimizə tərcümə edərək geniş oxucu kütləsinə çatdırmışdır. "Azerbaydjantsı vı istorii Rosii" kitabının hazırlanmasına köməklik göstərmiş və kitaba 30-a yaxın yazısı daxil edilmişdir. "Ağsaqqalın hikmət dünyası" nəşrinin işıq üzü görməsində əməyi böyükdür.

Tale ona korifey sənətkarlarla, görkəmli səxsiyyətlərlə ünsiyyət qurmaq, dostluq etmək şansı verib. Ədəbiyyat və incəsənət sahəsində Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Hüseyn Abbaszadə, Mikayıl Abdullayev, Hüseyn Əliyev, Kamil Nəcəfzadə, Arif Əziz, Toğrul Nərimanbəyov, Rafiq Mehdiyev, dövlət xadimlərindən Kamran Hüseynov, Rəşid Mahmudov, Rəhim Hüseynov, Rafiq Zeynalov, Sadıq Murtuzayev, hüquq-mühafizə orqanlarında çalışmış Abdulla İbrahimov, Tofiq Aslanov, Azad Talışoğlu, hərbçi generallardan Çingiz Məmmədov, Timaşenko, Altay Mehdiyev, tibb alimlərindən Mirməmməd Cavadzadə, Hənifə Abdullayev, Nazim Mollazadə, Əzizağa Talışinski və başqaları ilə səmimi əlaqələr qurmuş, onların tövsiyə və məsləhətlərindən bəhrələnmişdir.

Tanınmış dövlət xadimi, respublikanın Əməkdar jurnalisti Rəşid Mahmudovun Mehman Fərzullayev barədə qələmə aldığı yazı diqqətimizi cəlb etdi: "Mən ağsaqqal ömrümdə, 75 illik həyat yolunda çox-çox "dostlar" görmüşəm. Ancaq heç də hamısı, hətta bir neçəsi axıradək bu böyük ada layiq olmamışdır. Vəzifələr ötüşəndə, səhhət pozulanda, köməyə ehtiyac duyanda çoxları yan getmişdir. Demək olar, yeganə Siz uca Tanrı qarşısında daha bir borcunuzu yerinə yetirərək mənimlə daim sirdaş, həmkömək olmuşsunuz.

Biz çox illər bir yerdə işləmişik. Keçmiş "Kommunist" qəzetində və Moskvada nəşr etdiyimiz "Panorama Azerbaydjana" qəzetində fədakar əməyinizi yaxşı xatırlayıram. Sizdən heç vaxt gərgin, gecəli-gündüzlü çox məsuliyyətli tapşırıqları yerinə yetirərkən kiçicik etiraz, narazılıq hisslərini duymadım.

İstedadlı qələm sahibi Mehman Fərzullayev ömrünün 70-ci pilləsinə qalxmasına baxmayaraq bu gün də gənclik həvəsi ilə çalışır, məhsuldar yaradıcılıqla məşğul olur. Onun biri-birindən maraqlı yazılarını "Respublika", "Azərbaycan", "Xalq qəzeti", "525-ci qəzet" və digər qəzetlərdə, "Mütərcim", "Söz", "Kəlam" jurnallarında oxuyuruq. O, "Kəlam" jurnalının redaksiya heyətinin üzvüdür. "Qızıl qələm" və "Nurlu qələm ustası" mükafatları laureatıdır. Azərbaycan Jurnalistlər Birliyinin, Ahıl Jurnalistlər Məclisinin üzvüdür.

Hərbi-vətənpərvərlik sahəsində səmərəli fəaliyyətinə görə "Böyük Vətən müharibəsində qələbənin 50 illik", "Sovet İttifaqı marşalı Jukov" adına medallara, Respublika Veteranlar Şurasının Fəxri fərman və mükafatlarına layiq görülüb.

Bu günlərdə Azərbaycan Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin "Keçmişə ehtiramla, gələcəyə inamla!" layihəsi çərçivəsində Beynəlxalq Mətbuat Mərkəzində tanınmış jurnalist və nəşriyyat işçisi Hacı Mehman Fərzullayevin 70 illik yubileyi qeyd olunub. Tədbirdə yubilyara Mətbuat Şurasının diplomu və Ahıl Jurnalistlər Məclisinin xatirə hədiyyəsi təqdim olunub.

Mehman müəllim alicənab və nəcib insan olmaqla yanaşı həm də gözəl ailə başçısıdır. Ömür-gün yoldaşı Bəsti xanımla bir oğlan, üç qız böyüdüb həyata hazırlayıblar. Oğlu Xəyyam Amerikada təhsil almış, Norveçdə magistratura bitirmişdir, neft mühəndisidir. Qızı Jalə Rəssamlıq Akademiyasının, Şəbnəm Texniki Universitetin, Bahar isə Xəzər Universitetinin məzunudurlar. Mehman müəllim qayğıkeş ata, baba və ağsaqqal kimi övladlarına, doğmalarına, el-obaya dayaq olur, peşəkar poliqrafçı, təcrübəli jurnalist kimi gənc mütəxəssislərə köməyini əsirgəmir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Sənsiz səninlə xatirələrin pıçıltısı

**"Dünyada ən uzun və eyni zamanda ən qısa bizim həyatımızdır". Dahilərdən birinin söylədiyi bu müdrik kəlam tez-tez yadıma düşür. Mənə elə gəlir ki, gəlimli-gedimli bu həyatda Tanrının verdiyi ömür payının uzun və ya qısa olması bizim onu nə qədər mənalı və faydalı yaşamağımızla bağlıdır. Bu da bir həqiqətdir ki, insan itkisinə heç zaman öyrəşə bilmirik. İnsanın fiziki ömrünün başa çatdığı gün mənəvi ömrü başlayır. Hamı ictimai xadim, dahi şəxsiyyət ola bilməz. Amma qurub-yaratdıqların, xeyirxahlığın, xoş əməllərinlə tarixdə doğmalarının, dostlarının, səni tanıyanların, sevənlərinin yaddaşlarında mənən yaşamaq da elə ömürdür. Bu fikri isə ölkənin mədəniyyət və təhsil həyatında tanınan simalardan biri olmuş, alovlu naşir, publisist, Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov sağlığında söyləmişdi, elə özünə də belə bir ömür yaşamaq qismət olmuşdur. Qurub-yaratdıqları, gördüyü işləri ilə daim xatırlanan əsl ziyalı ömrü.**



Naşir-publisist, müəllim-pedaqoq, ziyalı, sadə insan Bəhruz Axundovun yanvar ayının 2-də doğum günüdür. Həmin gün özü olmasa da, yenə əzizləri, yaxınları, dostları, tanıyanları onun işığına toplaşacaq, yaddan çıxmaz xatirələr danışacaq. İstədim bu xatirələrin nurlu işığında mənim də payım olsun. Onunla çoxsaylı görüşlərim kinolenti kimi ardıcıllıqla xəyalımda yenidən canlanır. Bəhruz müəllim həm də gözəl müsahib idi. Gündəlik həyatda baş verən istənilən aktual mövzuda olduqca maraqlı həmsöhbət idi. Vaxtın azlığından həmişə şikayətliydi. Amma vaxtın azlığını, işlərin çoxluğunu bildirsə də, ictimai hadisələrə, nəşriyyat-poliqrafiya sahəsinin inkişafı ilə bağlı düşüncələrini, öz mövqeyini ifadə edər, bunu vacib sayardı. Danışdıqca biliyinə, savadına heyran qalmamaq olmurdu. Obyektivlik, dürüstlük onun özünü ifadə etmək kriteriyası idi. Etiraf edim ki, mən də ondan çox şey öyrənmişəm. Zəhmət, qətiyyət, işinə məsuliyyət, tələbkarlıq, səmimiyyət onun uğurlarının istinad nöqtəsi idi. Məhz bu insani keyfiyyətləri ona böyük nüfuz qazandırdı. Mənalı ömrünü nəşriyyat sahəsinə bağlayan, otuz ildən çox fəaliyyəti ilə bu sahənin inkişafına dəyərli töhfələr vermiş Bəhruz Axundov kitab çapının, naşirlik işinin onun üçün əqidə məsələsi olduğunu qürurla bildirirdi. Deyirdi: "Jurnalistlik fəaliyyətim olub, yazıçılıqla məşğul oluram. Yazıçılar Birliyinin üzvüyəm, bir neçə kitabın müəllifiyəm. Pedaqoji fəaliyyətim var, universitetdə dərs deyirəm. Gənclik vaxtlarımdan bəri məsul vəzifələrdə də çalışmışam, elmi işlə də məşğulam, dosentəm. Amma qəlbən və ruhən daha çox naşirəm. Mən özümü naşirlikdə tapmışam".

"Təhsil" nəşriyyatı tərəfindən nəfis tərtibatla nəşr olunan "Sənsiz səninlə" (Bəhruz Axundov xatirələrdə) kitabını vərəqləyirəm. Şüurlu həyatını kitab nəşrinə, təbliğinə həsr etmiş, bu sahədə danılmaz xidmətləri olan tanınmış naşir, publisist, şair, Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov haqqında görkəmli ziyalılarımızın, onunla bir yerdə çalışmış iş yoldaşlarının, doğmalarının xatirələri toplanmış kitabda elə kitab kimi ömür yoluna işıq salınır. Mən də bu xatirələrə istinad edərək yazını davam etdirirəm.

Bəhruz Həsən oğlu Axundov 1954-cü il yanvarın 2-də Ağdam şəhərində ziyalı ailəsində anadan olmuşdur. Atası Həsən Axundov Qarabağda hamı tərəfindən qəbul olunan mötəbər bir ağsaqqal, tanınmış şəxsiyyət olub. Belə bir ailədə böyüyüb tərbiyə alması onun gələcək fəaliyyətinin, xarakterinin formalaşmasına stimul verib. Uşaqlıq və yeniyetməlik çağları Azərbaycanın ən dilbər guşəsində, Qarabağda keçib. Orta təhsilini burada almış, əmək fəaliyyətinə burada başlamışdı. Müxtəlif vəzifələrdə çalışıb. Ağdam rayon Komsomol Komitəsinin katibi, ikinci katibi olub. 1981-ci ildən əmək fəaliyyətini Bakı şəhərində davam etdirib. Bəhruz Axundov qəlbən, ruhən Qarabağla yaşayıb. Elə söhbət olmurdu ki, orada yurd həsrətini dilə gətirməsin. Vətən sevgisi ilə alışıb yanan naşir əzmlə çalışır, çox böyük işlər həyata keçirməyə nail olmuşdu. Vətənə, xalqa xidmət həyat amalı idi. Belə bir deyim var. Vətənə sədaqətlə xidmət etmək özü də vətənpərvərlikdir. Azərbaycanın kitab sənəti mədəniyyətini, kitabını dünyada tanınması üçün əvəzsiz xidmətləri olub. Bəhruz Axundovun naşiri və tərtibçisi olduğu onlarca nəşr nümunələri nüfuzlu Beynəlxalq kitab sərgilərində ölkəmizi layiqincə təmsil etmiş, mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Onun naşiri olduğu, 6 dildə nəşr edilmiş, 2005-ci ildə beynəlxalq "Kitab sənəti" müsabiqəsinin qalibi "Qarabağ: real tarix, faktlar, sənədlər" kitabı Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür (müəlliflər Yaqub Mahmudov, Kərim Şükürov). Daha üç kitab - Çingiz Əlioğlunun "Atlantlar", Ədalət Vəliyev və Vaqif Bəhmənlinin "Novruz", M.Ə.Sabirin "Hophopnamə" kitabları da beynəlxalq müsabiqələrin qalibi olmuşdur. Onun tərtibçisi və naşiri olduğu "Çərçivə" kitabı respublikanın nəşriyyat və poliqrafiya tarixində ilk dəfə Moskvada təşkil olunan "Kitab sənəti" beynəlxalq kitab müsabiqəsinin baş mükafatına - Qran-Priyə layiq görülmüşdür.

Bəhruz Axundovun rəhbərliyi ilə yüzlərlə adda dərslik və dərs vəsaiti, ictimai-siyasi, elmi-kütləvi, bədii-publisistik ədəbiyyatlar və akademik nəşrlər işıq üzü görmüşdür. "Təhsil" nəşriyyatı 2005 və 2010-cu illərdə "İlin nəşriyyatı", nəşr etdiyi kitabların bir çoxu "İlin kitabı" adını qazanmışdır. Müstəqil Azərbaycanın milli təhsil sisteminin qurulması ilə əlaqədar yeni tədris proqramları əsasında latın qrafikasında buraxılan ilk milli dərsliklərin böyük əksəriyyəti də məhz Bəhruz Axundovun rəhbərliyi ilə nəşr olunmuşdur. Bu kitablar həm keyfiyyətinə, həm də tərtibatına görə həmişə seçilirdi. İlk dəfə respublikamızda şagirdlər üçün "İş dəftəri" əlavə dərs vəsaitlərinin də ünvanı "Təhsil" nəşriyyatı olub.

Qəlbən kitaba bağlı olan, kitabı sevən, kitabla nəfəs alan Bəhruz müəllim yaradıcı və təşkilatçı naşir olmaqla yanaşı, həm də gözəl poliqrafçı idi. Ürək yanğısı ilə çalışırdı ki, hamı kitabı sevsin. Deyirdi ki, istəyirəm evlərdə rəflərdə kitab olsun, insanlar bir-birinə kitab hədiyyə etsin, gəlinlərimizin cehizinin əsas atributlarından biri olsun. Çünki kitab bəşəriyyətin ən böyük kəşfi, sivilizasiyanın onurğa beynidir. Kitabı sevmək, oxumaq elmdir, yüksək mədəniyyətdir. Deyirdi: "Kitabı sevmədən bütöv insan, fəal vətəndaş olmaq olmaz. Bu yanğı ilə ilk dəfə onun təşəbbüsü, Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Naşirlər və Poliqrafçılar İctimai Birliyi təsis edildi, onun rəhbərliyi ilə fəaliyyətə başladı. Az zaman ərzində qurum ictimai təşkilatlar arasında layiqli yerini tutdu. "Naşir" jurnalı kitabsevərlərə təqdim edildi. Kitabın təbliğinə müstəsna əhəmiyyət verən Bəhruz Axundov 2010-cu ildə "Təhsil Nəşriyyat Poliqrafiya" Birliyinin nəzdində "Kitab evi"ni də bu məqsədlə yaratmışdı.

Bir insanın ömrünün dəyəri yaşı ilə deyil, əməllərilə, mənalı şərəfli, zəngin yaşanan həyatı ilə ölçülür. Vətənpərvər naşir Bəhruz Axundov ulu Tanrının ona verdiyi ömür payını şərəflə yaşadı. İllər keçsə də, onun xatirəsi heç zaman unudulmayacaq. Bugünün gənclərinə dolğun yaşamaq, Vətənə, xalqa xidmət nümunəsi olacaqdır. Təhsildən, nəşriyyat sahəsindən, kitabdan söz düşəndə adı həmişə ehtiramla yad olunacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**

# HƏMZƏYEVİN SƏNƏT TALEYİ




Həyat başdan-başa enişli-yoxuşlu, dolanbac yollardan ibarətdir. Bu yolları öz ağlı, düşüncəsi, zəhmətilə füsunkar bir mənzərəyə çevirmək isə hər kəsin öz əlindədir. Başqa bir tərəfdən, Uca Yaradan ömür verdiyi bəndəsinin qarşısına yollar çıxarır, onun ürəyində arzu, istəklər doğurur. Qəlbinə, ruhuna yaxın olan yolla getmək, maraqlı olan bir həyat yaşamaq, məqsədinə çatmaq, gördüyü işlər, yaratdığı həyat tabloları ilə təmsil olunduğu xalqına, cəmiyyətə fayda vermək isə bəndənin çiyinlərinə qoyulan yükü yorulub-usanmadan şərəflə daşımaq bacarığından asılıdır. Burada hansı sənətin, peşənin sahibi olmaq da önəm daşımır. Təki, sahib olduğun sənətdə şərəflə, ləyaqətlə fəaliyyət göstərərək, özünü təsdiq edə biləsən. Xalqına xidmətin təzahürü də əslində işıqlı, xeyirli əməllərdən başlayır.

Düşünürəm ki, həyatını mədəniyyətimizin bir qolu olan teatrla bağlayan sənətkarlar isə qeyri peşə sahiblərindən fərqli bir həyat yaşayırlar. Çünki bu sənətin daşıdığı missiya, çox böyük sınaqlardan, çətinliklərdən keçir. Tamaşaçını öz eşqinə, ideallarına, məqsədinə inandırmaq bacarığı, əslində sənətkardan böyük bir fədakarlıq tələb edir. Axı, teatr gerçək həyatın güzgüsüdür, tərbiyə edəndir və ən nəhayət, insanda özünəinam yaratmaqla, həyatı sevməyi, xalqına xidmət etməyi öyrədəndir. Xoş o sənətkarın - rejissor, aktyorun halına ki, sənətdə keçən ömrünü yelə vermədən indicə sadaladığımız keyfiyyətləri həyat amalına çevirə bilib. Bu mənada adını mədəniyyət tariximizin və xalqın yaddaşında pozulmayan naxış kimi yazmağı bacarıb. Mənə görə belə insanlar Tanrının seçilmiş bəndələridir...

Gəldim mətləb üstünə... Bu günlərdə **sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin görkəmli aktyor, rejissor, gözəl ziyalı, vətəndaş İbrahim Həmzəyevin həyat-sənət yolundan bəhs edən "İbrahim Həmzəyev" monoqrafik kitabı** ilə tanış oldum. Əslində bu, Azərbaycan mədəniyyətinə xidməti, sənət nümunələri ilə öz töhfəsini vermiş Həmzəyevlərin (İbrahim və Zəroş Həmzəyevlər) xatirəsinə ucaldılan bir ədəbi abidədir. Bu monoqrafik abidənin teatra gələcək neçə-neçə gəncin həyat yolunda bir mayak, yolgöstərən olacağı da mütləqdir.

Kitabın mənəvi, estetik dəyəri, əhəmiyyəti hər iki sənətdaşın həyat yolunu, yaradıcılığını, malik olduqları sənətkarlıq xüsusiyyətlərini, insani keyfiyyətlərini öyrənmək, faydalanmaq baxımından olduqca gərəkli bir mənbədir. Bu kitabı İbrahim Həmzəyevin, eləcə də onun ömür-gün yoldaşı, sənətdaşı, müəllifin təbirincə desək, yöndaşı Zəroş Həmzəyevanın salnaməsi də adlandırmaq olar. Bu salnamə isə əslində 100 ildən də bir qədər çox, əslində Gəncə teatrının yarandığı dövrdən başlamış, günümüzə qədər olan bir tarixi əhatə edir. Bu mənada onu teatr sənətini tədris edən, öyrənənlər üçün dərslik kimi də qəbul etmək doğru olar. Kitabda hər şeyi tarixi ardıcıllıqla, bəzən də ötənlərə qayıtmaqla ədəbi faktları yerli-yerində işlədərək, maraqlı bir üslub və dillə təsvir etmək İlham Rəhimlinin sənətşünaslıq sahəsində püxtələşmiş sənətkar olması ilə əlaqədardır, desək, ədalətli səslənər.

Mən bu sənətkarları - Həmzəyevləri nə səhnədə, nə də həyatda görmüşəm. Amma özümü dərk edəndən, mətbuatla yaxın olduğum zamandan onlar haqqında həmişə dəyərli fikirlər eşitmişəm.

"İbrahim Həmzəyev" monoqrafiyası özünün çoxfaktlı, yüksək dil səviyyəsi, tarixi hadisələrə və faktlara diqqətlə, həssaslıqla yanaşması ilə mənə olduqca xoş təsir bağışladı. Mən bu kitabda İlham müəllimin böyük axtarış-əziyyətlərinə qatlaşaraq yüksək sənətkarlıqla ortaya sanballı bir əsər qoyduğundan məmnun qaldım. Çəkilən zəhmətin bariz nümunəsi olaraq, İbrahim müəllimin, Zəroş xanımın obrazını gördüm.

Mövzu maraqlı bölmələrdə böyük peşəkarlıq, cazibədarlıqla əhatə olunduğundan birnəfəsə oxunur. "Ön söz əvəzi" bir çox əsərlərdə olan girişlərdən köklü surətdə fərqlənir.

Əsərdə İbrahim Həmzəyevin kökü, şəcərəsi, onların kimliyi, fəaliyyəti, mənsub olduğu ailənin nüfuzu, həyat tərzi və yeniyetmə gəncin fərqli bir sahəyə doğru yol alması, arzularına sarı qanad açması bütün həyat hekayətlərindən fərqlənən şirin bir nağıla bənzəyir. Bu nağıl başlanğıcdan sonacan çox döngələrdən, keçidlərdən ötür, çox hadisələri - tarixi günləri özündə ehtiva edir. Sənətkar həyatda çox xarakterlər yaradır, onları öz düşüncələri, əməlləri, varlıqları ilə tamaşaçılara təqdim edir. İbrahim Həmzəyevin sənət yolundan bəhs edən bu kitabda onlarla, yüzlərlə sənətkarın adı çəkilir, ən ümdəsi də böyük bir dövr özünün səciyyəsi ilə göz önünə gətirilir, xatırlanır. Bir sənətkar ailəsi - İbrahim-Zəroş cütlüyü bu dövrün, mədəniyyət mühitinin mərkəzində olduqca parlaq görünür. Bu insanların səhnəyə bağlılıqları böyük istedad və qabiliyyətlərindən keçir. Müxtəlif mövzuda, çoxçalarlı istiqamətlərdə yazılmış əsərlərdə xarakterik obrazları canlandırmaq necə və hansı əziyyətlər, oyun tərzi, davranışlardan keçir, bütün bunları İlham Rəhimli böyük ustalıqla, həm də sənətkarların özünəxas maneraları ilə təsvir edir. Bu təsvirlər bədii detallarla o qədər zəngindir ki, onları nəzərdən keçirmək, göz önünə gətirmək də insana zövq verir, onda mütaliəyə həvəs yaradır.

Belə kitablarda oxucuya xoş təsir bağışlayan, onu kövrəldən, duyğulandıran, düşündürən və uzun müddət önu öz cazibəsində saxlayan sənətkarlar haqqında söylənilən xatirələrdir. Ələlxüsus da belə xatirələr ailə üzvləri, övladları tərəfindən danışılanda insanın hissi, duyğusu tarıma çəkilir, onu bu xatirələrin fonunda gözlərinin qarşısında canlandıra bilir. Qızı Arzu xanım böyük fəxarət hissilə xatırlayır ki, "Ulu öndər Heydər Əliyev atam İbrahim Həmzəyevi özünün müəllimi hesab etmiş, onun sənətinə, şəxsiyyətinə həmişə yüksək qiymət vermişdir. Aradan uzun illər keçəndən sonra, jurnalist Svetlana Mirzəyeva isə, söhbət zamanı Heydər Əliyev həyatında xüsusi rol oynamış bu qeyri-adi şəxsiyyət haqqında təəssüratlarını bölüşmüşdü:

"1937-ci ildə hamının bir-birini tanıdığı Naxçıvanda təzə bir adam peyda oldu. Dərhal da diqqəti cəlb etdi: böyüklər də, kiçiklər də gözəl biçimli kostyum, qar kimi ağ köynək geymiş, səliqə ilə bağlanmış qalstuk taxmış, üstündə bir dənə toz zərrəsi olmayan qara lak çəkməli, gözəl qamətli kişini diqqətlə süzürdülər. O, naxçıvanlıların əsas istirahət yerinə - şəhər bağında yerləşən teatra gedirdi. Naməlum adam yüngül yerişlə irəliləyirdi. Ona baxmağın özü elə bir tamaşa idi, yoldan keçənlər ayaq saxlayıb, bu adamın arxasınca baxırdılar. Artıq biz hamımız, Naxçıvan əhli onun artist olduğunu, bizim teatra işləməyə gəldiyini bilirdik. Təbii ki, İbrahim Həmzəyev mənimlə söhbət edəndə çox şad oldum. Mənə rəhbərlik etdiyi dərnəkdə məşğul olmağı təklif edəndə isə çox fikirləşmədən razılığımı verdim".

Sənətşünaslıq doktoru, professor İlham Rəhimli bu monoqrafiyasında İbrahim və Zəroş Həmzəyevlərin (xüsusən də İbrahim Həmzəyevin) səhnə fəaliyyətləri, teatrda rollarını ifa edərkən yüksək səhnə mədəniyyəti, jestləri, obrazı canlandırmaq məharətini zəngin bədii epitetlərlə, həm də ustalıqla təsvir etmişdir. Və müəllifin İbrahim Həmzəyev haqqında söylədiyi bu fikri səsləndirmək zənnimizcə, yerinə düşər: *"İbrahim Həmzəyev oynadığı bütün obrazların adındakı məna yükünü mütləq ifasının cövhərində əridirdi, onun fəlsəfi dəyərinə hopdururdu. Məhz bu anlamla da obrazı bütövlükdə dramaturji hadisələrə öz məntiqi ilə bağlayırdı".*

Belə kitablarda təbii ki, sənətkarların həyat yollarının, sənət talelərinin müəyyən məqamlarını əbədiləşdirən fotoların təqdimi də böyük əhəmiyyət kəsb edir. Bunlar tarixi fotolardır və zaman ötdükcə onların dəyəri də misilsiz olur. İlk gənclik çağlarından başlamış, həyatlarının müxtəlif anları, sənətdə keçən ömürlərini işıqlandıran şəkillər, rollarından fraqmentlər, oyun maneralarını əks etdirən anlar, sənət dostları, ailə üzvləri ilə birgə fotolara baxdıqca baxmaq istəyirsən, onları yaşadığı həyatla birgə öyrənmək, tanımaq arzusunda olursan.

Yox, biz burada detal, ştrix xarakterli misalların sayını artırmaq niyyətində deyilik, müəllifin sənətkarlıq xüsusiyyətlərini açan, ifadə edən bu təsvirləri verməklə, oxuculara həmin kitabı oxumağı tövsiyə edirik. Və inanırıq ki, bu kitabdan bəhrələnməli, faydalanmalı çox şeylər var.

**Şəfəq NASİR,**
**"Respublika".**

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ 2019-CU İL

*münasibətilə Azərbaycan Respublikasına daim sülh və əmin-amanlıq, Azərbaycan xalqına xoşbəxtlik və rifah arzulayırıq.*

TEKFEN İNŞAAT

AZPETROL

*"Azpetrol" şirkətinin rəhbərliyi və kollektivi Azərbaycan xalqını 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edir, xalqımıza sülh, əmin-amanlıq, birlik, hər bir ailəyə xoşbəxtlik, firavan həyat və xoş gələcək arzulayır.*



# YENİ İLİNİZ MÜBARƏK!


# Ermənilərin törətdikləri soyqırımların mətbuatda əksi

**(əvvəli 4-cü səhifədə)**

Qalan 17 kəndin sakinləri isə Cavanşir qəzasının dağlıq hissəsinə qaçır, daha doğrusu, 7-8 kəndin sakinləri erməni qoşunları tərəfindən təqib olunan Gəncə qəzasının 5-ci sahəsinin qarlı zirvələrində, dərələrdə gizlənirlər, qarın altında qalıb kütləvi şəkildə məhv olurlar. Ararat Respublikasının məsələsi artıq həll olunub, artıq Göyçə rayonunda müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağılmışdır, onlardan 22-si aprel ayının 13-20 tarixlərində dağıdılmışdır. Bunlar: Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Soğanqulu-ağalı, Ağkilsə, Zod, Qulu Ağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzebil, Cayəhmədli, İməkdağ, Qara İman, Kəsəmən, Başkənd, Kiçik Məzrə, Şişqaya, Baş Hacı, Qərib Qaya 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı-başına buraxıb qaçmışlar. Bütün bu mal-dövlət hazırda ermənilərə qalıb: qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir" ["Azərbaycan" qəzeti, 17 may 1919].

1918-ci ildə daşnak-erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi soyqırımları dövrün görkəmli qələm sahibləri tərəfindən müxtəlif yönlü mətbu orqanlarda işıqlandırmışdır. 1918-1919-cu illərdə Bakıda nəşr olunan "Şeypur" jurnalında Göyçə ətrafında baş verən hadisələrdən söz açılmış, ermənilərin məkrli işğalçılıq siyasətinin məqsədləri və daşnak mətbuatında çalışan jurnalistlərin təhrikedici riyakar əməlləri kəskin tənqid edilmişdi.

"...O gün Gəncədən iki teleqraf gəlib ki, erməni soldatları Göyçə sərhədini keçib müsəlmanlara hücum etmişlər. 60 min müsəlmanın irzü-namusu, həyatı, malı və mülkü təhdid edilir.

İndi Tiflisdə olan Camalyana və erməni qəzetlərinə desən ki, balam bu nə əhvalatdır? Özlərini eşitməzliyə vurub deyəcəklər ki, qoymayın, erməni milləti qırıldı qurtardı. Bu işlərdən belə görünür ki, ermənilər Ermənistana qənaət etməyib Rey havasına düşmüşlər.

Xülasə, erməni kirvələri çox ərköyün bəslənmişlər. Onlar deyir ki, biz hər nə etsək, siz danışmayın. Ancaq siz bir balaca əl tərpətsəniz qiyamət qopardarıq. Başını ağrıtmayım, bu axır vaxt heç ermənilər özləri də bilmirlər nə istəyirlər" [ "Şeypur" jurnalı, 14 noyabr 1918].

Ermənilərin tanınmış dövlət xadimi Aleksandr Myasnikyan daşnakların Ermənistanda müsəlmanlara qarşı yürütdüyü anti-milli siyasət haqqında hələ 1921-ci ildə yazmışdı: "Milli siyasət müstəvisində daşnakların yeganə məqsədi Ermənistanı başqa millətlərdən təmizləmək idi. Onlar deyirdilər: "Xbapet ruhlu erməni olmaq istəyirsinizsə nifrət etdiyiniz türkləri, insana bənzəməyən tatarları qırın, od vurub kəndlərini yandırın, var-yoxlarını çapıb-talayın, əllərindən alın, Ermənistanı başqa millətlərdən təmizləyin." [ "Xorhurdain Hayastan" (Sovet Ermənistanı) qəzeti, 1921, № 234].

Birinci Dünya müharibəsi illərində Ermənistan dövlətinin yaradılması üçün daşnak ideoloqları çox böyük ictimai-siyasi və təbliğati iş aparır, "Daşnaksütyun" və digər milli partiyaların proqram və qərarlarının həyata keçməsi üçün yorulmadan çalışırdılar. "Daşnaksütyun" tərəfindən yaradılan "Milli büro" bütün səlahiyyətləri ələ aldıqdan sonra ermənilərun katalikosu V.Qevorka müraciət edərək Rusiya çarı II Nikolaya "ermənilərin onun ən sadiq təbələri" olduğunu bildirməsi və onları Osmanlı dövlətinin əsarətindən xilas edilməsində və oradakı qardaşlarının kədərinə son qoyulmasında köməklik göstərməsi xahişində bulunmasını istədilər. Müraciətdə deyilirdi: "Doğma vətənimizin üzərinə düşən bu ağır sınaqların müvəffəqiyyətlə başa çatmasında qüdrətli rus silahının zəfərinə inanırıq. Qoy rus bayrağı Bosfor və Dardaneldə dalğalansın. Böyük hökmüdar, qoy Sizin iradənizlə Türkiyənin zülmü altında inləyən xalqlar azadlığa qovuşsunlar" [Arıman O. Çarlık Rusiyasının Türkiyedeki oyunları. Ankara: Türk Tarih Kurumu, 1967. s. 143].

"Daşnaksütyun" partiyasının orqanı olan "Hayrenik" (Vətən) qəzeti isə yazırdı: "Çarın Qafqazdakı köməkçisi Böyük knyaz Nikolay Nikolayeviç dünən Tiflisə gəlmişdir. Biz dərindən əminik ki, Böyük knyaz Türkiyənin hökmüranlığına birdəfəlik son qoyacaqdır!" ["Hayrenik" qəzeti, 24 sentyabr 1915, № 2]. Göründüyü kimi, məqsədlərinə çatmaq üçün hər bir vasitədən məharətlə istifadə edən ermənilər, təbliğati və təşviqati məsələlərə də xüsusi önəm verir və bu işdə ən çox daşnak mətbuatından istifadə edirdilər.

O dövrdə Rusiya ictimai-siyasi dairələrində də millətçi eməni vandallarının azərbaycanlı əhaliyə qarşı qanlı soyqırımlarına müxtəlif baxışlar mövcud idi. Ermənilərə xüsusi qəyyumluğu, gürcü və azərbaycanlılara isə qəzəb və hiddəti ilə seçilən çar Rusiyasının cənub qoşunlarının komandanı, general A.İ.Denikin 26 fevral 1919-cu ildə Britaniyanın Qafqazdakı hərbi missiyasının rəisi general Briqqsə ünvanladığı bəyanat xarakterli məktubunda bildirirdi: "Soçi dairəsi erməni milli şurasının rəsmi nümayəndələri, Suxumi dairəsində, əsasən də Qudaut kəndində yaşayan ermənilərin gürcü hərbiçilərinin zorakılığından qorunmaq üçün mənə müraciətlə xahiş ediblər. Gürcü hərbiçiləri Soçi dairəsində təmizləmə əməliyyatı apardıqdan sonra Suxumi dairəsində erməni kəndi olan Qudautdan və dairənin hər bir kəndindən 1000 pud çəkidə qarğıdalı, ot və soya bitkisi müsadirə ediblər. Göstərilən kənd sakinlərinin ərzağı yoxdur və onların bunu gürcülərdən tələb etmək imkanları da yoxdur.

O vaxt gürcü qoşunu kəndi mühasirəyə almışdı və fevralın 10-da onlar dinc əhaliyə qarşı pulemyot və artilleriyadan atəş açmağa başladılar. Soçi dairəsi erməni milli şurasının yuxarıda göstərilən bəyanatında qeyd olunanlar və cəbhə arxasında mənim tabeliyimdə olan hərbi rəhbərliyin verdiyi raportlar da təsdiqləyir ki, Bzıb çayının kənarında yerləşmiş gürcü qoşunlarının artileriya və pulemyot atəşi səsləri daimi eşidilir.

Zati-aliləri, sizdən xahiş edirəm ki, köməksiz vəziyyətdə olan erməni əhalisinə qarşı törədilmiş zorakılığa görə, Britaniyanın Zaqafqaziyadakı yüksək komandanlığına mənim qəti etirazımı bildirəsiniz və rica edəsiniz ki, gürcü dövlətinə güclü təzyiq göstərsin ki, bu vəhşilik dayandırılsın" [Лукомский А. Из сборника: Алексеев С.А. " - Деникин - Юденич - Врангель (мемуары), М.- Л., 1925. с. 96].

Məqaləyə yekun olaraq aşağıdakı nəticəyə gəlmək olar:

Birincisi, 1914-1918-ci illərdə Osmalı imperatorluğu ərazisində qiyam və kütləvi qırğınlar yolu ilə öz dövlətini yaratmağa çalışan ermənilər, hökumətin sərt tədbirlərindən sonra məqsədlərinin baş tutmayacağını görərək, bu dəfə Cənubi Qafqazda, Azərbaycan ərazisində istəklərini həyata keçirməyə çalışdılar. Bu məsələdə Rusiya imperiyası başda olmaqla Antanta dövlətləri ermənilərə güclü dəstək verirdi.

İkincisi, Cənubi Qafqazda erməni hərbçilərinin sayının durmadan çoxalması və azərbaycanlı əhalinin özünü müdafiə etməsi üçün isə heç bir hərbi gücə - silah və sursata malik olmaması daşnak millətçilərin milli dövlət yaratmaq istəklərini daha da artırmışdı. O dövrdə Azərbaycan ziyalıları, ölkənin qabaqcıl fikir sahibləri yaranmış bu təhlükəli vəziyyəti duyur, və bununla bağlı artıq mətbuatda çoxsaylı yazılar dərc etməyə başlamışdılar.

Üçüncüsü, 1918-ci ildə erməni daşnaklarının azərbaycanlı əhaliyə qarşı soyqırım cinayətlərini "Kaspi", "Açıq söz", "Şeypur", "Azərbaycan", "Азербайджан" kimi qəzet və jurnallar ətraflı şəkildə işıqlandırır, faciəvi hadisələrdən operativ məlumatlar verir, qırğınların qarşısının alınması üçün müxtəlif yollar axtarıb-arayırdılar. Erməni mətbuatı və daşnak təxəyüllü millətçi-şovinist qüvvələr isə tam əksinə, qanlı hadisələrin daha geniş xarakter alması və türk-müsəlman əhalinin böyük miqyasda itkilər verməsi üçün müxtəlif istiqamətli təbliğat və təxribat xarakterli cinayətkar əməllər həyata keçirirdilər.

**Zəfər KƏRİMOV,**
**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru.**


## BİLDİRİŞ

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Dövlət Aqrar İnkişaf Mərkəzlərinin mebel və inventarlarla təchiz edilməsi üzrə elan edilmiş təkliflər sorğusunun qalibi kimi "Construction Technology" MMC ilə ümumi dəyəri 399,760.40 manat olan müqavilə imzalanmışdır.

## BİLDİRİŞ

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Laçın Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasının təmiri üzrə elan edilmiş təkliflər sorğusunun qalibi kimi "Arena İnşaat" MMC ilə ümumi dəyəri 80 680.43 manat olan müqavilə imzalanmışdır.

## BİLDİRİŞ

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Xocalı Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasının təmiri üzrə elan edilmiş kotirovka sorğusunun qalibi kimi "Arena İnşaat" MMC ilə ümumi dəyəri 42 442,48 manat olan müqavilə imzalanmışdır.

Kreditor "R Palace" MTK, borclu "Fərəh-G" MMC-nin (hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Ak.Həsən Əliyev, ev 82C) müflis elan olunması ilə əlaqədar məhkəməyə ərizə ilə müraciət etmişdir. 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 23 noyabr 2018-ci il tarixli, 2-2(82)-797/2018 saylı qətnaməsi ilə Cəmiyyət müflis elan edilərək onun iflas prosesinə başlanılmış, "Ləğvetmə Agentliyi" (ünvan: AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat pr., 18/7, məhəllə 539) MMC əmlak inzibatçısı təyin edilmişdir. Debitor və kreditorlar (055) 255-42-98 nömrəli mobil telefonla əlaqə saxlaya bilərlər (Cəmiyyətin direktoru Vüsal Kazımzadə).



Baş redaktor Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi Hümmət MUSAYEV

● Çapa imzalanmışdır 29.12.2018